Xalqın qəzeti!

# Xalq qəzeti

№ 139 (30833) 10 iyul 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Əbu-Dabidə Azərbaycan–Ermənistan görüşü keçiriləcək

**Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında davam edən sülh prosesi çərçivəsində iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında ikitərəfli görüş keçiriləcək.**

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan – Ermənistan: ədalətli sülhün alternativi yoxdur

## Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri

*Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda qarşılanma*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib.**

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan və digər rəsmi şəxslər qarşıladılar.

# Bakı–İrəvan sülhü və ABŞ

*Vaşinqtondan fundamental yanaşma gözləyirik*



**ABŞ Dövlət Departamentinin rəhbəri Marko Rubio Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasından söz açıb. O, Prezident Donald Trampla jurnalistlərə verdiyi birgə açıqlamada deyib ki, Bakı ilə İrəvan arasında sülh razılaşmasının tezliklə əldə olunacağına ümidvardır. Yazımızda bu barədə söz açacaq, cənab Rubionun bu fikri səsləndirərkən nəyə söykəndiyini diqqətə çatdıracaq, habelə Vaşinqtonun Cənubi Qafqazda sülh quruculuğuna fundamental yanaşması baxımından bəzi məqamların üzərində dayanacağıq.**

*

Əvvəla, onu deyək ki, Birləşmiş Ştatlar kimi super gücün Azərbaycan və Ermənistan arasındakı sülh prosesinə önəm verməsi son dərəcə vacibdir. Əlbəttə, Ağ Evin əvvəlki sahibi Cozef Baydenin zamanında da ABŞ-ın məsələyə müəyyən yanaşması nəzərə çarpırdı. Həmin vaxt Rubionun sələfi Antoni Blinken tez-tez Bakı–İrəvan normallaşmasına dair ölkəsinin mövqeyini açıqlayırdı. Daha dəqiq desək, sabiq dövlət katibi ümumi ifadələrlə kifayətlənirdi.

*(ardı 3-cü səhifədə)*

# BMT platformasında Qarabağ həqiqətləri




səhifə ⇨ 8

## Müstəqillik epoxasının media qaranquşu




səhifə ⇨ 9

## Naxçıvanda baramaçılıq dirçəldilir



səhifə ⇨ 8

# Yanlış siyasi yozum, qərəzli şərh

*İƏT-in Xankəndi Kommünikesindəki bütün müddəalar beynəlxalq hüquqa və yekdil rəyə söykənir*




**İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq qurum tərəfindən Qərbi Azərbaycan məsələsinin qaldırılması 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Ermənistandakı doğma yurdlarından didərgin salınan, etnik təmizləməyə məruz qalan soydaşlarımıza beynəlxalq dəstəyin nümunəsi hesab edilə bilər.**

*(ardı 4-cü səhifədə)*

# Türkiyə – Azərbaycan – Ermənistan: uğurlu sabaha doğru



səhifə ⇨ 3

# Azərbaycan–Çin dəmiryol əməkdaşlığı genişlənir



səhifə ⇨ 7

# Azərbaycan Prezidenti İlham Əliyevin Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşü olub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.**

Söhbət zamanı dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulandı.

Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlandı, həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliyimizlə bağlı geniş müzakirələrin aparıldığı qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıldı, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu və bu istiqamətdə perspektiv layihələr müzakirə edildi.

SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirildi.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunuldu və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edildi.

Sonra prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalandı.

Görüşün sonunda dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

*AZƏRTAC*

***9 İyul Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günüdür***

# Azərbaycan diplomatiyası müstəqilliyin və milli maraqların keşiyində

## Gülüstan sarayında rəsmi qəbul







**İyulun 8-də Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə Gülüstan sarayında rəsmi qəbul və konsert proqramı təşkil edilib.**



Rəsmi qəbulda Xarici İşlər Nazirliyi və ölkəmizin diplomatik missiyalarının rəhbərləri, bir sıra dövlət qurumlarının yüksəksəviyyəli nümayəndələri, Milli Məclisin deputatları, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və nümayəndələri iştirak ediblər.

Mərasimdə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun duayeni Məhəmməd Adil Embarş çıxış edərək peşə bayramı günü münasibətilə diplomatik xidmət orqanları əməkdaşlarına təbriklərini çatdırıb, onlara fəaliyyətlərində uğurlar arzu ediblər.

Çıxışlarda əldə edilmiş əsas xarici siyasət nailiyyətlərindən bəhs olunub.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət xəttinin reallaşdırılmasında diplomatik xidmət orqanlarının üzərinə mühüm vəzifələrin düşdüyü vurğulanıb.

Rəsmi qəbul konsert proqramı ilə davam etdirilib.

*XQ*

## Xankəndidə xüsusi sessiya




**Diplomatik xidmət orqanları rəhbərlərinin "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda IX müşavirəsinin Xankəndi şəhərində xüsusi sessiyası keçirilib.**

Nümayəndə heyəti əvvəlcə Xankəndi şəhərinin mərkəzi hissəsi ilə tanış olub. Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları onlara Xankəndi şəhərində həyata keçirilən quruculuq işləri barədə məlumat veriblər.

Diplomatik xidmət orqanlarının rəhbərləri sonra Qarabağ Universiteti ilə tanış olublar.

"Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin Xankəndi şəhərində xüsusi sessiyası keçirilib. İclasda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəhbər heyəti, xarici ölkələrdə akkreditə olunmuş diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

*XQ*

## Diplomatik xidmət orqanlarının rəhbərləri Şuşa şəhərində



**Diplomatik xidmət orqanları rəhbərlərinin IX müşavirəsi çərçivəsində Xankəndidə keçirilən xüsusi sessiyanın iştirakçıları Azərbaycan tarixinin və mədəniyyətinin mübarizlik rəmzinə sayılan Şuşa şəhərinə səfər ediblər.**

Nümayəndə heyəti əvvəlcə Şuşa şəhərində birinci yaşayış kompleksində yaradılan şəraitlə tanış olublar. Azərbaycan Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov bildirib ki, təməli 2021-ci ildə qoyulan yaşayış kompleksinin açılışı 2024-cü il mayın 10-da olub. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilib. 376 keçmiş məcburi köçkün ailəsi doğma şəhərinə qayıdaraq yaşayış kompleksində məskunlaşıb.

Merdinli məhəlləsinə gələn nümayəndə heyətinə məlumat verilib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri memarlıq abidələri ilə yanaşı, həm də məhəllələri ilə tanınıb. Qədim Şuşada 17 məhəllə olub. XVIII əsrin sonları - XIX əsrin əvvəllərində salınmış Merdinli məhəlləsi şəhərin mərkəzi hissəsində yerləşir. Merdinli məhəlləsindən bir çox tanınmış şəxsiyyətlər çıxıb. XIX əsrdə inşa edilən "Şirin su" hamamı və məşhur tarzən Sadıqcanın evi də Merdinli məhəlləsindədir.

Diplomatlar Aşağı Gövhər Ağa məscidinə gəliblər. Məlumat verilib ki, Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. Nümayəndə heyəti Şuşa şəhərinin Qarabağ küçəsində həyata keçirilən tikinti işləri ilə də tanış olub.

Sonda Cıdır düzünə gələn diplomatik xidmət orqanlarının rəhbərləri buradan açılan təbiət mənzərəsini seyr ediblər.

*XQ*

## "Diplomatiya aləmi" jurnalının 20 illik yubileyi

**İyulun 8–9-da Bakı və Şuşa şəhərlərində Azərbaycanın Xarici İşlər Nazirliyinin rəsmi nəşri olan "Diplomatiya aləmi" jurnalının 20 illik yubileyinə həsr olunmuş beynəlxalq dəyirmi masa keçirilib.**



Toplantıda 16 ölkədən Xarici İşlər nazirliklərinin nümayəndələri, tanınmış beyin mərkəzlərinin təmsilçiləri, eləcə də beynəlxalq münasibətlər və diplomatik təhlil sahəsində ixtisaslaşmış jurnalların redaktorları və ekspertləri iştirak ediblər.

Açılış mərasimində xarici işlər naziri Ceyhun Bayramov "Diplomatiya aləmi" jurnalının son 20 ildə Azərbaycanın xarici siyasət prioritetlərini və beynəlxalq proseslərə münasibətini əks etdirən önəmli platforma rolunu oynadığını vurğulayıb.

Dəyirmi masa iştirakçıları üçün Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinə səfər təşkil olunub. Qonaqlar Ermənistanın işğal siyasətinin nəticələri, dağıdılmış infrastruktur və tarixi-mədəni abidələr, eləcə də yenidənqurma və bərpa işləri ilə yerində tanış olublar. Şuşanın tarixi və mədəni irsinə dair təqdimatlar keçirilib, səfər mədəni proqramla tamamlanıb.

*XQ*

# Bakı – İrəvan sülhü və ABŞ

(əvvəli 1-ci səhifədə)

Əslində, Baydenin zamanında Birləşmiş Ştatlar aşkar ermənipərəst mövqe tuturdu. Həmin vaxt rəsmi Vaşinqtonun Cənubi Qafqazda münasibətlərin nizamlanmasına, ümumən regionun perspektivinə yanaşaması ikili standartlara, aşkar tərəfkeşliyə söykənirdi ki, fikrimizin təsdiqi qismində Blinkenin bəyanatlarından kənar məqamların, o cümlədən, bu il yanvarın 14-də, yəni Trampın Prezident olaraq vəzifə səlahiyyətlərinə başlamasından altı gün əvvəl imzalanmış ABŞ–Ermənistan Strateji Tərəfdaşlıq Xartiyasının üzərində dayana bilərik. Hərçənd, indi buna bir o qədər ehtiyac duymuruq.

Əlqərəz, ABŞ-ın hazırkı rəhbərliyindən Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasına münasibətdə ədalətli yanaşma gözləntimiz var. Gözləntimiz Birləşmiş Ştatların hakim komandasının ölkəni böyük dövlətlərə xas xarakter sahibi kimi saxlamaq əzmindən qaynaqlanır. Axı, böyüklər böyük olmağı bacarmayanda ediləcək nə isə qalmır. Cənab Bayden və komandası fikrimizin haqqını verdi. Əlbəttə, buna haqqını vermək demək mümkündürsə...

**

Beləliklə, M.Rubio Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasına ABŞ-ın qlobal miqyasda sülh vasitəçiliyi fonunda əldə etdiyi uğur kontekstində yanaşıb: “Hindistan və Pakistan arasında müharibənin qarşısını aldıq və sona çatdırdıq. Konqo Demokratik Respublikası ilə Ruanda arasında sülh sazişi, eyni zamanda, Amerika əməliyyatı ilə sona çatan 12 günlük müharibə - biz dünyada bunu edə biləcək yeganə ölkəyik. Ümid edirəm ki, tezliklə Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalanacaq”.

Bəli, Rubionun fikrini olduqca inamlı tərzdə diqqətə çatdırması təqdirəlayiq məqamdır. Həqiqətən, Konqo ilə Ruanda arasında sülh sazişinin imzalanması müstəsna haldır. Hindistan və Pakistan arasında müharibənin dayanması da həmçinin. Amma bir anlıq düşünək görək, sonuncuların mübahisələri tarixə qovuşubmu? Onlar Kəşmir münaqişənin həllinə nail ola bilibləmi? Eləcə də İran-İsrail ixtilafının da geridə qaldığını düşünmək mümkünsüzdür və heç bir təminat yoxdur ki, gələcəkdə istər bu iki ölkə, istərsə də Pakistanla Hindistan yenidən bir-birinə cəbhə açmayacaq.



Əminliklə demək olar ki, hazırda Tramp administrasiyasının sayəsində qlobal miqyasda qazanan ABŞ obrazı var. Amma Birləşmiş Ştatların haqqında söz açdığımız Bayden dövrü də olub ki, həmin vaxt ölkənin imici yüksək deyildi. Trampdan sonra da Ağ Evə hansı qüvvələrin rəhbərlik edəcəyi, onların necə mövqe tutacaqları məchuldur. Sözümüz ondadır ki, münaqişəli tərəflər arasında vasitəçilik fundamental mahiyyət daşımalı, konfliktlərin aradan qaldırılmasında maksimum uzlaşma əldə olunmalıdır. Bu, sülhün dayanıqlı mahiyyətini vurğulayan həyati əhəmiyyətli amildir. Dayanıqlılıq o formada təmin olunmalıdır ki, qarşılıqlı münasibətlərindəki davranışlar həmin ölkələrdə hansı ideya və düşüncə sahiblərinin hakimiyyətə gəlmələrindən asılı olmasın. Azərbaycan da Ermənistanla sülhə məhz belə yanaşır. Bu yanaşma müstəsna əhəmiyyətə malikdir. Çünki Ermənistandakı revanşist və şovinist kəsim aktivdir və sözügedən kəsimə xaricdən də dəstək var.

Belə bir durumda gözlər önündə Cənubi Qafqazın dünyanın diqqət mərkəzində olan bölgə statusu canlanmalıdır. Axı mövcud coğrafiyadakı kommunikasiyalar Qərblə Şərqin iqtisadi-ticari əlaqələrində xüsusi rol oynayır. Orta Dəhliz kimi mühüm layihə və onun komponentləri beynəlxalq miqyasda ciddi müzakirə olunmaqdadır. Deməli, bölgə müharibə risklərindən, avantüra və ixtilaflardan mümkün qədər çox sığortalanmalıdır. Bu amil iqtisadi əməkdaşlıq zəncirinin möhkəmliyi, bir qədər detallı desək, beynəlxalq yükdaşımaların fasiləsizlik immuniteti baxımından zəruridir.

*

Ona görə də rəsmi Bakı İrəvanla bütün bəndləri razılaşdırılmış sülh sazişinin imzalanması üçün iki şərt irəli sürüb. Birinci şərt Ermənistan konstitusiyasına dəyişiklikdir. Çünki erməni əsas qanunu ölkənin 1990-cı ildəki İstiqlaliyyət Bəyannaməsinə istinad edir. O bəyannaməyə ki, orada Azərbaycan ərazisində mövcud olmuş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin adı çəkilir. Müstəqil Ermənistanın formalaşmasında həmin muxtar vahidin qərarına söykənilir ki, bu da ölkəmizə qarşı ərazi iddiasıdır.

İkincisi, müstəqillik illərində Ermənistanın Azərbaycana ərazi iddiası məntiqini özündə daşıyan, hazırda ölü hala düşmüş təsisat var. Söhbət ATƏT-in Minsk qrupundan gedir. Ölkəmizin sülh müqaviləsinin imzalanması baxımından ikinci şərti bu qurumun ləğvidir. Belə bir təsisat olmamalıdır. Ümumən, hansısa qurum, təşkilat və ya birlik Azərbaycanla Ermənistan arasında mübahisəli ərazinin mövcudluğuna dair rəy formalaşdırmamalıdır. Ona görə də dövlətimiz Ermənistana ATƏT-in Minsk qrupunun rəsmən fəaliyyətini dayandırması üçün birgə müvafiq müraciət ünvanlamağı təklif edir.

*



Ermənistanın Azərbaycana ərazi iddiası torpaqlarımızın işğalı, bir milyona yaxın vətəndaşımızın öz doğma yurd-yuvasında didərgin düşməsi, qaçqın və məcburi köçkün həyatı yaşaması reallığını doğurdu. Uzun müddət xalqımız məşəqqətlərə dözdü. Nəhayət, dövlətimiz gücünü toplayaraq təcavüzə son qoydu, beynəlxalq təşkilatların, o cümlədən BMT-nin illərdir məhəl qoyulmayan qətnamələrini yerinə yetirdi. Bir sözlə, ölkəmiz ilahi ədaləti təmin etdi. Ancaq proses heç də asan başa gəlmədi, şəhidlər verdik. Bu səbəbdən Azərbaycan Ermənistanın ərazi iddiasından tam şəkildə daşınmasında – Ermənistan konstitusiyasının ölkənin İstiqlaliyyət Bəyannaməsinin buxovundan qurtulmasında israrlıdır. Rəsmi Bakının sülhə fundamental yanaşmasının ilkin göstəricisi budur.

Sonda qeyd edək ki, Ermənistan hazırda Azərbaycanın şərtlərini yerinə yetirməkdən boyun qaçırır. Mövcud durumda yenidən ABŞ Dövlət Departamentinin rəhbəri Marko Rubionun açıqlamasına qayıdaraq deyək ki, Birləşmiş Ştatlar Azərbaycan və Ermənistan arasında sülhə hansısa formada töhfə vermək əzmindədirsə, vurğuladığımız məqamları nəzərə almalıdır. Nəzərə almalıdır ki, Vaşinqtonun da maraqlı olduğu Cənubi Qafqazda sülh dayanıqlı olsun. Bir halda ki, cənab Rubio Bakı–İrəvan sülhünün əldə olunacağına ümidvardır, biz də ABŞ-da barış məsələlərinə prinsipial yanaşanların qətiyyət göstərəcəklərinə inanaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Türkiyə – Azərbaycan – Ermənistan: uğurlu sabaha doğru

## *İrəvan onun üçün yeni fürsətlərin yaranmasının fərqindədir*

**Cənubi Qafqazda son illər müşahidə olunan diplomatik dinamika, xüsusilə də Türkiyə, Azərbaycan və Ermənistan arasında baş verən dialoqlar və mümkün razılaşmalar regionun gələcəyi üçün yeni perspektivlər vəd edir. Geosiyasi gərginliklərə baxmayaraq Zəngəzur dəhlizi ətrafında formalaşan əməkdaşlıq potensialı İrəvanın regional inteqrasiyaya açıq mövqe sərgiləməsi ilə daha real xarakter almaqdadır.**



İrəvan üçün yeni geoiqtisadi perspektiv son zamanlar bölgədə dəyişən güc balansı və diplomatik əlaqələrin istiləşməsi fonunda daha aydın görünür. Uzun illər boyu təcrid vəziyyətində qalan Ermənistan indi tədricən vəziyyətdən çıxmaq üçün real fürsətlərlə üz-üzədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanın regional layihələrdə, xüsusilə Zəngəzur dəhlizində iştirak etməyə hazır olduğunu vurğulaması bu ölkənin yeni geosiyasi reallıqlara uyğunlaşmaq iradəsini nümayiş etdirir. Qeyd etməliyik ki, Ermənistan üçün bu fürsət sistemli şəkildə dəyişən regional iqtisadi nizamın bir parçasına çevrilmək imkanı deməkdir. İrəvan bu prosesdə ağıllı və praqmatik mövqe sərgiləsə, Zəngəzur dəhlizi onun üçün iqtisadi fürsət pəncərəsinə çevrilə bilər. Yəni, İrəvan öz sərhədlərindən keçəcək bu dəhlizə müqavimət göstərmək əvəzinə, onu milli iqtisadiyyatının canlandırılması üçün bir vasitə kimi qəbul etməlidir. Nəqliyyat və logistika baxımından Ermənistanın coğrafi mövqeyi buna uyğundur. O, Qara dəniz hövzəsi, Xəzər regionu və Fars körfəzi arasında yerləşən körpü rolunu oynaya bilər. Bütün bunlar isə Ermənistanın indiyədək istifadə olunmamış potensialını açmaq üçün ciddi şansdır.

Kommunikasiya xətlərinin bərpası – xüsusilə, dəmir yolları və enerji infrastrukturu Ermənistanın uzunmüddətli enerji təhlükəsizliyi üçün də strateji addım olacaq. Regional enerji axınlarında iştirak etmək İran və Rusiya kimi ənənəvi tədarükçülərdən asılılığı azalda, diversifikasiya prosesinə töhfə verə bilər. Azərbaycan qazının və ya türkmən qazının Ermənistana və ya Ermənistan ərazisindən keçərək üçüncü ölkələrə nəqli bu ölkənin regional enerji bazarının bir parçasına çevrilməsini təmin edə bilər.



Ermənistan–Türkiyə sərhədinin açılması isə həm də iqtisadi həyatın yenidən canlanması üçün real zəmin yaradılması deməkdir. İki ölkə arasında ticarət, sənaye əməkdaşlığı, turizm və infrastruktur layihələri geniş vüsət ala bilər. Ermənistanın daxili bazarının kiçik olması uzun illər onun inkişafına əngəl törədirdi. İndi isə açıq sərhədlər və aktiv tranzit funksiyası bu məhdudiyyəti aradan qaldıracaq.

Üstəlik, Ermənistanın Avrasiya ilə Avropa arasında yerləşməsi ona geostrateji əhəmiyyət qazandırır. Məhz bu mövqe düzgün siyasətlə gücə çevrilə bilər. Ermənistan həm də özünü regionlararası iqtisadi əməkdaşlıq platforması kimi təqdim etməyi bacarmalıdır. Elə bu baxımdan da Zəngəzur dəhlizi ətrafında formalaşan əməkdaşlıq ruhu Ermənistanın həm regional, həm də qlobal logistika şəbəkələrinə inteqrasiyasına təkan verə bilər. Qafqazın yeni iqtisadi konturlarında yer almaq üçün, bu, İrəvan üçün yaranan nadir tarixi fürsətdir.

*

Zəngəzur dəhlizi ətrafında yaranan diskursu yalnız geoiqtisadi və enerji logistikası kontekstində qiymətləndirmək kifayət deyil. Dəhliz, eyni zamanda, Cənubi Qafqazda uzunmüddətli sülhə və dayanıqlı əməkdaşlığa gedən yol kimi də dəyərləndirilməlidir. Bölgədə onilliklər boyu davam edən münaqişələr, blokadalar və etimadsızlıq mühiti məhz bu tip inteqrativ layihələr vasitəsilə aradan qaldırıla bilər.

Azərbaycan və Türkiyənin Zəngəzur dəhlizini sülh və rifaha aparan regional inteqrasiyanın mühüm tərkib hissəsi kimi təqdim etmələri əhəmiyyətlidir. Mövcud yanaşma Ermənistan üçün də ciddi fürsətlər yaradır. Dəhliz, eyni zamanda, siyasi divarların sökülməsi, uzun illər düşmən kimi təqdim olunan tərəflər arasında qarşılıqlı asılılığın formalaşması deməkdir.

Məhz bu kontekstdə də Ermənistanın dəhlizə qoşulması onun iqtisadiyyatını regionun dinamik bazarları ilə birləşdirməklə yanaşı, daxili siyasi sabitlik və sosial-iqtisadi inkişaf üçün zəmin yarada bilər. Çünki iqtisadi fayda və əməkdaşlıq imkanları artdıqca, sülhün cəmiyyətlər arasında qəbul olunma dərəcəsi də yüksəlir. Elə bu səbəbdən dəhliz həm də ictimai şüurun transformasiyası üçün simvolik əhəmiyyət daşıyır.

Dəhliz üzərində qarşılıqlı nəzarət və şəffaf koordinasiya mexanizmlərinin qurulması isə tərəflər arasında etimadın yaranmasına xidmət edərdi. Layihədə Rusiya, İran və digər qonşu ölkələrin maraqları ilə toqquşmadan irəliləmək də vacibdir. Zəngəzur dəhlizinin geosiyasi rəqabət vasitəsi deyil, çoxtərəfli əməkdaşlıq platforması kimi təqdim olunması onun uğurlu gələcəyini təmin edə bilər.

Təcrübə göstərir ki, kommunikasiya xətləri açıldıqda insanlar bir-birini daha yaxından tanıyır, ticarət sərhədləri yumşaldır, qarşılıqlı ehtiyaclar dialoqa səbəb olur. Məhz bu səbəbdən Zəngəzur dəhlizinə birləşdirici, transformativ layihə kimi baxılması daha doğrudur. Ermənistan bu layihəyə konstruktiv yanaşsa, onun nəticələri ölkənin gələcək siyasi və iqtisadi kursunu dəyişmək gücündədir.

*

Ankara, Bakı və İrəvan arasında formalaşan yeni üçtərəfli əməkdaşlıq mexanizmi Cənubi Qafqazda status-kvonun dəyişməsinə xidmət edən “tutarlı balans” yanaşmasıdır. Bu modeldə hər üç payçı – Türkiyə, Azərbaycan və Ermənistan – öz strateji maraqlarını bölüşərək qarşılıqlı faydanı maksimum dərəcədə artırmaq üçün elastik üçbucaq çərçivəsi qururlar. Belə bir yanaşma ənənəvi çoxrəngli rıçaqlardan uzaqlaşaraq, konkret infrastruktur və ticarət layihələri ətrafında dəqiq və koordinasiyalı addımların atılmasını təmin edir.

Zəngəzur dəhlizinin reallaşması və Ermənistanın bu layihəyə qoşulmaq niyyəti yeni diplomatik alət hesab olunan “yumşaq güc” strategiyasının da inkişafına stimul verə bilər. İqtisadi inteqrasiya çərçivəsində formalaşdırılacaq və gələcəkdə açılacaq sənaye parkları, logistika mərkəzləri və investisiya zonaları təkcə yük daşımalarına deyil, həm də regionda müasir texnologiya, dizayn və keyfiyyət standartlarını yaymağa xidmət edəcək.

Üçtərəfli əməkdaşlıq həm də elastik bir “regional inteqrasiya” modelidir: sərhədləri yumşaldır, institusional çərçivələri genişləndirir və problem həllini çoxpartiyalı, çoxtərəfli platformalara – enerji, nəqliyyat, ticarət, təhlükəsizlik üzrə vahid strukturlara – daşıyır. Bunun sayəsində Cənubi Qafqaz Avrasiya və Avropa arasında bağlayıcı körpüyə çevrilir.

Beləliklə, Ankara–Bakı–İrəvan üçbucağı Cənubi Qafqaz üçün prioritetləri – iqtisadi inteqrasiya, sülh və təhlükəsizlik – harmoniya daxilində tənzimləyən elastik, lakin təsirli bir regional model kimi formalaşa bilər. Yanaşma sınaqdan çıxdıqca regionun digər qonşu dövlətləri də – məsələn, Gürcüstan və Mərkəzi Asiya ölkələri – öz yeri və rolu barədə konstruktiv dialoqa qoşula bilər.

Son olaraq qeyd etmək istərdik ki, proseslər düzgün yönləndirilərsə, Cənubi Qafqazda uzunmüddətli barış və sabitlik yeni reallığa çevrilə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Yanlış siyasi yozum, qərəzli şərh

(əvvəli 1-ci səhifədə)

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xankəndi şəhərində keçirilmiş 17-ci Zirvə görüşünün yekun sənədi olaraq yayılan Kommünikedə öz əksini tapmış bu müddəa Azərbaycan dövlətinin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşması ilə bağlı qətiyyətli mövqeyi, xalqımız üçün bu taleyüklü məsələnin beynəlxalq gündəmə qətirilməsi nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Bu müddəa özündə təkcə ölkəmizin deyil, İƏT üzvü olan bütün dövlətlərin yekdil rəyini əks etdirir.

Bəs Xankəndi Kommünikesində yer almış həmin müddəanın İranın Ermənistandakı səfiri Mehdi Sübhani tərəfindən yanlış interpretasiya edilməsinin səbəbi nədir? Haypərəst mövqeyi çoxdan bəlli olan səfirin “Armenpress”ə müsahibəsində “İqtisadi Əməkdaşlıq Təşkilatının son sammitinin yekunları üzrə qəbul edilmiş və Ermənistan Respublikasının ərazi bütövlüyünü pozan, uydurma ifadələrdən istifadə olunan kommünikenin bəzi müddəalarının İranın mövqeyinə uyğun gəlmədiyini” bəyan etməsində hansı məqsədi güddüyü məlumdur. Məlum olmayan odur ki, səfir rəsmi Tehranın kommünike ilə bağlı İƏT-ə rəsmi məktubla qeyd-şərtlərini və iradlarını bildirdiyini açıqlasa da, bu barədə İran Xarici İşlər Nazirliyinin müvafiq məlumatı yayınlanmayıb.

Məsələ ilə bağlı “Armenpress”in sualını cavablandıran səfir Sübhani bildirib ki, kommünike özündə yalnız sammitin sədrinin nöqteyi-nəzərini əks etdirir və orada iştirak edən ölkələrin mövqelərini əks etdirməməlidir: “Bu bəyanatda yer alan bəzi müddəalar, o cümlədən “Ermənistan Respublikasına qarşı ərazi iddiaları ilə bağlı uydurma ifadələr” (?) İran İslam Respublikasının fundamental mövqeləri ilə dost və qonşu ölkəyə – Ermənistan Respublikasına münasibətdə məqbul sayıla bilməz”.

“İran İslam Respublikasının səfirinin diqqətinə çatdırırıq ki, Zirvə görüşünün nəticələrinin əks olunduğu Xankəndi Kommünikesi İƏT üzv dövlətləri ilə əvvəlcədən razılaşdırıldığı kimi, əvvəlki Zirvə görüşlərinin təcrübəsinə uyğun olaraq, üzv dövlətlərlə razılaşdırılmasına ehtiyac olmadan sammitin sədrinin xülasəsi formatında tərtib edilərək təşkilatın rəsmi internet səhifəsində dərc edilib. Bu halda, İran səfirinin guya Xankəndi Kommünikesinin qəbul olunmasına İran tərəfinin qeyd-şərt qoyması barədə iddiaları reallığı əks etdirmir”. Bu isə Azərbaycan XİN-in mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin səfir Mehdi Sübhaninin İƏT-in Xankəndi Zirvə görüşünün yekun sənədi ilə bağlı iddialarına verdiyi şərhində yer alıb.




*

**İİR-in Ermənistandakı səfirinin ikibaşlı bəyanatı səbəbindən yaranmış vəziyyətlə bağlı XQ-yə açıqlamasında siyasi icmalçı Tofiq Abbasov** bildirdi ki, Mehdi Sübhani Azərbaycan–İran münasibətlərində bir müşkülə çevrilib: “Bu adam diplomat statusu daşısa da, ikitərəfli münasibətləri çökdürmək üçün sistemli şəkildə çalışır. O, hər vəchlə İranla Azərbaycan arasında böyük problemlərin yaşandığı görüntüsünü yaratmaq üçün əlindən gələni edir. Amma bu zaman Ermənistanla İranın münasibətlərinin ideal vəziyyətdə olmasından dəm vurur. Yəni bu müstəvidə Sübhaninin özfəaliyyətlə məşğul olması qəti şübhə doğurmur. Onun reallıqdan uzaq bəzi əcaib açıqlamaları, şərhləri, verdiyi qiymətlər bir çox hallarda Tehranın rəsmi mövqeyi ilə daban-dabana ziddir. İƏT-in Xankəndidə keçirilmiş 17-ci Zirvə görüşü ilə bağlı dedikləri də bu qəbildəndir. Burada iki məqama diqqət çəkilir. Birincisi, Xankəndi Kommünikesində iştirakçı ölkələrin hamısının ümumi rəyi əks olunub. Orada sual doğuran heç bir müddəa, müəmma yoxdur. Bu, yekdilliklə qəbul edilmiş yekun sənəddir. Məsələni ürəyindən keçirdiyi kontekstdə oturtmağa çalışan Sübhaninin, həqiqətən də diplomatik ustalığı olsaydı, o, misal üçün, ikitərəfli mövqedən çıxış edən hansısa ölkə başçısının ümumi rəyindən, yaxud mətbuata açıqlamasından istifadə etməklə bunu daha “istedadlı” şəkildə ortaya çıxara bilərdi. Amma onun bəyanatında heç bir əsaslandırma yoxdur və sadəcə, özünün şərtləndirdiyi məsələdə İranın fərqli mövqedə dayandığını bildirir. Təbii ki, onun dedikləri ağ yalandır”.



Siyasi şərhçi Xankəndi Zirvə görüşünün son dərəcə şəffaf və sağlam bir atmosferdə keçdiyinə diqqət çəkərək, iştirakçıların əhvalının da buna uyğun olduğunu vurğuladı: “Birincisi, təşkilatçılıq yüksək səviyyədə idi. İkincisi, Azərbaycanın bu formatlı beynəlxalq görüş və tədbirlərin keçirilməsində böyük təcrübəyə malik olduğunu iştirakçıların hamısı yaxşı bilirdi. Nəhayət, ev sahibi Azərbaycan Prezidenti İlham Əliyev çıxışında, həmişə olduğu kimi, səmimi və konkret idi. Dövlət başçımızın dilindən səslənən bütün fikirlər, tezislər toplantı iştirakçılarının hamısı tərəfindən məmnunluqla qəbul edildi. Bəli, burada dövlət və hökumət başçıları, nazirlər arasında formalaşmış etimad mühiti də öz işini görür. Məhz bu baxımdan Mehdi Sübhaninin erməni mediasına verdiyi müsahibəsində təxribatçı açıqlaması, sanki, normal ahəngdarlıqla səslənən musiqiyə xaric notlar əlavə eləyir”.

Azərbaycanlıların Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının ilk dəfə deyil gündəmə gətirildiyini bildirən T.Abbasov bu məsələnin İƏT-in Xankəndi görüşünə gələnlərin hamısı tərəfindən anlayışla qarşılandığının şahidi olduğumuzu qeyd etdi: “Onların hamısı bu məsələni öyrənmişdilər, məlumatlı idilər. Bu, Azərbaycanın beynəlxalq hüquqa söykənən haqlı tələbidir. Bizim insanlar Ermənistandan kütləvi şəkildə qovulublar və doğma yurdlarına layiqli qayıdışı onların təbii haqqıdır. Səfir Mehdi Sübhani bu məsələyə özündən nələrisə əlavə etməyə baş vurur. O, bununla nə demək istəyir? Məqsədi işlədiyi ölkədə özünü “ermənilərin adamı” kimi gözə dürtməkdir, vəssalam. Amma onu da qeyd edək ki, son vaxtlar Sübhaninin erməni mediası ilə münasibətləri heç də rəvan müstəvidə davam etmir. Görünür, bu adamın xislətində münaqişə, problem yaratmağa qəribə bir meyil, istək var. Yəni, o, ekstrim olmadan özünü ifadə etməyi bacarmır”.

Ekspertlə razılaşaraq dediklərinə onu da əlavə edək ki, belə davranış səfir adına başucalığı gətirməyən hərəkətlərdir. Azərbaycan və İran Prezidentlərinin bir-birinə “Qardaş!” deyə müraciət etmələrini, ikitərəfli görüşlərdə bütün məsələlərə dair rahatlıqla razılıq əldə etmələrini görməyən, yaxud görmək istəməyən İrəvandakı səfir Mehdi Sübhaninin, doğrudan da, diplomatik ranqı ilə uyuşmayan davranışları ciddi araşdırılmalı və rəsmi Tehran onun barəsində lazımi tədbir görməlidir. Əks təqdirdə onun siyasi manipulyasiya və riyakarlıqdan yoğrulmuş növbəti anti-Azərbaycan fikirlərinə rəsmi Bakı daha kəskin və konkret cavab vermək məcburiyyətində qalacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Oskanyan hələ də “sülh planı”ndan dəm vurur

## *Görünür, sabiq xarici işlər naziri Qarabağ məsələsinin bitməsindən xəbərsizdir*

**Ermənistanın sabiq (1998–2008) xarici işlər naziri, hazırda ölkədə radikal revanşist kəsimin “görkəmli” nümayəndələrindən olan Vardan Oskanyan bədnam əməllərindən əl çəkmir. Yaşı 70-i ötmüş, ömrünün ixtiyar çağını yaşayan bu qoca olan-qalan gücünü toplayıb erməni cəmiyyətində Azərbaycana və azərbaycanlılara qarşı nifrətin davam etməsi üçün çalışır. Bütün bilik və bacarığını bu istiqamətə yönəldərək iki dövlət və xalq arasında düşmənçiliyin əbədi olmasını təmin etmək, Azərbaycanın ünvanına qara yaxmaq hazırda onun həyat amalına çevrilib.**

Oskanyan hazırda Qərbdə siyasi dəstək axtarışındadır. O, İsveçrə parlamentinin deputatları Erix Fontobelli (Federal Demokratik İttifaq) və Lukas Reymann (İsveçrə Xalq Partiyası), habelə Beynəlxalq Xristian Həmrəyliyi Təşkilatının prezidenti, doktor Con Eybnerlə birgə bu həftə Vaşinqtona səfər edib. Səfərdə məqsəd “Dağlıq Qarabağ üzrə İsveçrə sülh təşəbbüsü”nü təqdim etmək və ABŞ-ın Cənubi Qafqazda ədalətli və uzunmüddətli sabitliyə daha fəal cəlb olunmasını təşviq etməkdir. Ermənistanın “Aysor.am” saytına açıqlama verən Oskanyan deyib ki, 2025-ci ilin martında İsveçrə parlamenti Federal Şuranı beynəlxalq sülh konfransı (?) təşkil etməyi öhdəsinə götürməyə çağıran “tarixi” (dırnaq işarəsi bizimdir–S.H) qətnamə qəbul edib. Onun sözlərinə görə, konfransın məqsədi Azərbaycanın hakimiyyət orqanları ilə Qarabağın “məcburi köçkün” erməni əhalisinin nümayəndələri arasında beynəlxalq nəzarət altında könüllü, kollektiv və ləyaqətli qayıdış üçün danışıqlara yönəlmiş birbaşa dialoqa (?) başlamaqdır.

İyulun 7-də nümayəndə heyəti ABŞ Dövlət Departamentində olub və burada dövlət katibinin köməkçilərinin müavinləri Ceyk Makqi və Monika Eyqer Yakobsen ilə görüşüb. Müzakirələrdə Qarabağdan könüllü köçüb getmiş ermənilərin hüquqları, eləcə də Cənubi Qafqazda və bütövlükdə regionda baş verən proseslər müzakirə olunub. Oskanyan deyib ki, nümayəndə heyəti İsveçrənin təşəbbüsünə dəstəyi gücləndirmək və “davam edən köçkünlük böhranını” beynəlxalq gündəmdə saxlamaq məqsədilə Vaşinqtonda Konqres üzvləri, hüquq-müdafiə təşkilatları və analitik mərkəzlərin nümayəndləri ilə görüşləri davam etdirəcək.

*

Qeyd edək ki, V.Oskanyan buna qədərki çıxışlarında da Azərbaycanın, guya, “təcavüzkar siyasət” yürütdüyünü iddia edir, Ermənistanın isə “sülh və sabitlik” tərəfdarı olduğunu təlqin etməyə çalışırdı. Lakin bu cəhdlər nə regional reallığa, nə də tarixi faktlara əsaslanırdı. Göründüyü kimi, o, ABŞ-a səfəri zamanı yenə də ənənəvi ritorikaya üstünlük verib. Onun Vaşinqtonda səsləndirdiyi fikirlər bir tərəfdən erməni diaspor və lobbisinə mesajdırsa, digər tərəfdən Nikol Paşinyanın son vaxtlar zəifləyən mövqelərinə paralel alternativ siyasi platforma yaratmaq cəhdidir. Bu çıxışlar isə həm Ermənistanın daxili siyasətinə, həm də regiondakı sabitliyə ciddi zərbədir.

Ümumiyyətlə, V.Oskanyanın çıxışları ilə tanış olduqda onun hələ də ötən əsrin 90-cı, yaxud 2000-ci illərin əvvəllərində yaşadığı qənaətinə gəlmək mümkündür. O, Azərbaycanın “dəmir yumruğ”un gücü hesabına regionda yaratdığı reallıqları ya görmək istəmir, ya da özünü görməzliyə vurur. Rəsmi Bakının ölkənin ərazi bütövlüyünü bərpa etməsi ilə bölgədə yaranmış yeni təhlükəsizlik arxitekturasını dərk etməyən Oskanyan yenə “məzlum Ermənistan”, “təcavüzkar Azərbaycan” stereotiplərinə sığınıb. Halbuki, bu ritorika daha nə Qərbdə, nə də regionda keçərlidir. Onun çıxışları həm Ermənistan daxilində köhnə siyasi qrupların revanşist iddialarına xidmət edir, həm də diaspor dairələrinin təhriki ilə reallıqdan uzaq təsəvvürlər formalaşdırmağa yönəlib. ABŞ-da belə çıxışlar sülh gündəminə zərbə vurur və rəsmi İrəvanın özü üçün də riskli vəziyyət yaradır.

Oskanyanın Vaşinqtonda apardığı “sülh təşəbbüsü” kampaniyası, əslində, siyasi manipulyasiya və təxribat xarakteri daşıyır. Onu səfərdə müşayiət edən Erix Fontobelli və Lukas Reymann İsveçrədə ifrat sağçı dairələrlə əlaqəli olan və populist çıxışları ilə tanınan siyasətçilərdir. Avropada hər iki şəxsin adı daha çox mühafizəkar və anti-multikulturalist çağırışlarda hallanır. Onların “sülh təşəbbüsü” adı altında regional reallıqları təhrif edən çıxışları, əslində, siyasi qərəzin nəticəsidir. Beynəlxalq Xristian Həmrəyliyi Təşkilatının rəhbəri Con Eybner isə uzun illərdir “qoca qitə”-də anti-Azərbaycan mövqeyi ilə seçilən, xristianlıq amilini siyasi alətə çevirən bir fiqurdur. Eybner ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş kampaniyaların əsas simalarından biri kimi tanınır. O, əvvəllər də Qarabağdakı keçmiş separatçı rejimi açıq şəkildə dəstəkləyib və bunu “xristian həmrəyliyi” adı altında təqdim edib. Belə keçmişə malik şəxslərin iştirakı Oskanyanın təşəbbüsünün səmimi niyyətdən uzaq, əksinə, məqsədli dezinformasiya yaymaqla bölgədəki sülh prosesinə zərbə vurmaq olduğunu göstərir. Bütövlükdə, “Dağlıq Qarabağ üzrə İsveçrə sülh təşəbbüsü” kimi təqdim edilən layihə, əslində, separatçı meyilləri dirçəltməyə yönəlib və qeyd etdiyimiz kimi, regionun yeni reallıqlarına ziddir.




*

Azərbaycan 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsi və 2023-cü ildəki birgünlük antiterror tədbirləri ilə özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. Qarabağ məsələsi beynəlxalq müstəvidə bağlanmış hesab olunur. Bu reallıq artıq həm regional güclər, həm də beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunub. Ermənistan da 2022-ci il oktyabrın 7-də Praqada Avropa Siyasi Birliyinin zirvə görüşü çərçivəsində imzaladığı bəyanatla Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu rəsmi şəkildə tanıyıb. Belə olan halda, “status”, “məcburi qayıdış” və ya “dialoq” kimi iddialar tamamilə əsassız və mənasızdır. Azərbaycanın suverenliyi daxilində yaşayan bütün vətəndaşlar üçün bərabər hüquqlar təmin edilir və bu proses qanunvericilik çərçivəsində davam etdirilir. Xarici aktorların bu məsələni süni şəkildə gündəmdə saxlamaq cəhdləri isə sülhə yox, revanşist meyillərə xidmət edir. Oskanyanın iddia etdiyi “məcburi köçkün ermənilər” ifadəsi də hüquqi əsasdan məhrumdur. Çünki söhbət Qarabağdan keçmiş separatçı xunta rejiminin təzyiq və təhriki ilə könüllü köç etmiş şəxslərdən gedir. Azərbaycan tərəfi hələ 2023-cü ilin oktyabrında bölgədə yaşayan erməni əsilli vətəndaşların reinteqrasiya planını açıqlamışdı. Ancaq qeyd etdiyimiz kimi, onlar rəsmi Bakıdan edilən çağırışları dinləməkdənsə, köçüb getməyi üstün tutdular. Sonrakı dövrdə də Azərbaycan dəfələrlə bəyan edib ki, köç etmiş ermənilər dövlətin qanunlarına riayət etmək, ölkənin suverenliyini və ərazi bütövlüyünü tanımaq şərtilə geri qayıtmaq istəyirlərsə, bu prosesə hüquqi və humanitar çərçivədə baxıla bilər. Əsas meyar qanunlara hörmət və vətəndaş məsuliyyətidir. Azərbaycanda indiyədək heç kim etnik mənsubiyyətinə görə diskriminasiyaya məruz qalmayıb, bundan sonra da qalmayacaq. Lakin heç kimə Azərbaycan daxilində paralel idarəçilik qurmaq, silahlı qruplaşma, “boz zona” yaratmaq, ölkənin ərazi bütövlüyünə qarşı çıxmaq hüququ da verilə bilməz. Bu baxımdan, “könüllü, ləyaqətli və kollektiv qayıdış” iddiaları yalnız o zaman məntiqi ola bilər ki, həmin şəxslər Azərbaycanın yurisdiksiyasını tam şəkildə qəbul etmiş olsunlar.

“Dağlıq Qarabağ üzrə İsveçrə sülh təşəbbüsü”ndə məqsəd ABŞ-ı prosesə cəlb etməklə Azərbaycana təzyiq göstərməkdir. Lakin belə yanaşmalar nə regionda sülhə töhfə verə, nə də Ermənistanın özünün gələcəyinə fayda gətirə bilər. Əksinə, bu cür təşəbbüslər Ermənistanın mövcud geosiyasi reallıqları qəbul etməsini gecikdirir. Sülh danışıqları yalnız bir-birinin suverenliyinə hörmət və daxili işlərinə qarışmamaq prinsipi əsasında aparıla bilər. Xarici güclərin vasitəsilə gündəmə gətirilən təzyiq mexanizmləri Azərbaycan tərəfindən qəbuledilməzdir və nəticəsiz qalmağa məhkumdur. Ermənistan üçün yeganə düzgün yol səmimi əməkdaşlıq və etimad quruculuğuna əsaslanan siyasətdir. Əgər İrəvan yenidən havadarlarına arxalanaraq revanşizmə yönələcəksə, bunun acı nəticələrini ilk növbədə elə özü yaşayacaq.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV,**
**hərbi-siyasi şərhçi**

– Vardan Oskanyanın “Dağlıq Qarabağ üzrə İsveçrə sülh təşəbbüsü” adı altında həyata keçirdiyi səylər, əslində, bölgədə mövcud olan hüquqi-siyasi reallıqları təhrif etməyə yönəlmiş cəhddir. Onu müşayiət edən Erix Fontobelli və Lukas Reymann kimi populist və ifrat sağçı İsveçrə siyasətçiləri, eləcə də anti-Azərbaycan mövqeyi ilə tanınan Con Eybner kimi fiqurlar bu təşəbbüsün obyektiv və konstruktiv olmadığını göstərir. Əgər məqsəd sülh və sabitlikdirsə, o zaman bu cür birtərəfli, qərəzli qruplarla deyil, rəsmi Bakı ilə birbaşa və hüquqa əsaslanan əməkdaşlıq qurulmalıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa olunub və beynəlxalq ictimaiyyət bunu tanıyıb. “Könüllü qayıdış”, “status” və ya “dialoq” kimi çağırışlar yalnız Azərbaycanın konstitusiyası və qanunları çərçivəsində mümkündür. Kənar vasitələrlə Bakıya təzyiq göstərmək, süni danışıqlar mühiti formalaşdırmaq cəhdləri nə səmərə verəcək, nə də bölgədə real sabitlik yaradacaq. Oskanyan və ona dəstək verən dairələr başa düşməlidir ki, revanşizm və siyasi avantüralarla deyil, regional əməkdaşlıqla gələcək qurula bilər. Vaşinqtonda gündəmə gətirilən bu təşəbbüs, əslində, beynəlxalq tribunalarda Azərbaycanın haqlı mövqeyini zəiflətmək üçün hazırlanmış yeni kampaniyanın tərkib hissəsidir. Lakin bu cəhdlər həm hüquqi, həm də siyasi baxımdan iflasa məhkumdur və Azərbaycanın qəti mövqeyi fonunda nəticə verməyəcək.

# Hayların “xüsusi məruzəçi” planı

## BMT-də erməni lobbisinin indidən iflasa məhkum növbəti cəhdi

**Erməni lobbisi və onun təsiri altında olan bir sıra beynəlxalq QHT-lər yenidən aktivləşiblər. Bu dəfə onların hədəfi BMT İnsan Hüquqları Şurasında “Dağlıq Qarabağ üzrə xüsusi məruzəçi” mandatının təsis olunmasıdır. Siyasi baxımdan neytral və insan hüquqlarını qorumalı olan bu beynəlxalq platformanın geosiyasi manipulyasiyalara alət edilməyə çalışılması ciddi narahatlıq doğurur. Xüsusilə də Azərbaycanın ərazi bütövlüyünü tanıyan beynəlxalq hüquq normalarına və mövcud siyasi reallığa zidd şəkildə bu cür təşəbbüslərin irəli sürülməsi regionda süni gərginlik yaratmaq məqsədi güdür.**



Bu kampaniyada xüsusi canfəşanlıq göstərən təşkilatlardan biri də anti-Azərbaycan mövqeyi ilə seçilən və BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) assosiativ üzv statusuna malik “Christian Solidarity International” adlı QHT-dir. Bu qurum son illər müxtəlif beynəlxalq platformalarda Azərbaycana qarşı birtərəfli və qərəzli çıxışları ilə tanınır. Yadınızdadırsa, təşkilat 2024-cü il iyulun 9-da və oktyabrın 1-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının tədbirləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü təhrif edən xəritələr nümayiş etdirmiş, orada ölkəmizin suveren əraziləri qondarma, qeyri-qanuni adlarla göstərilmişdi. Bundan əlavə, həmin tədbirlərə işğal dövründə Azərbaycana qarşı qeyri-qanuni fəaliyyətlərdə iştirak etmiş şəxslər əsas çıxışçılar kimi dəvət olunmuşdular.

Bu addımlar BMT-nin təməl prinsiplərinə zidd olmaqla yanaşı, beynəlxalq hüququn normalarının pozulması idi. Mövzu ilə bağlı XQ-yə açıqlamasında “İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə bildirdi ki, qurumun təşviqat kampaniyasının məqsədi insan hüquqlarını müdafiə etməkdən çox, Qarabağ münaqişəsini yenidən alovlandırmaq və Azərbaycanın beynəlxalq mövqeyini zəifləməkdir: “Biz bilirik ki, bu təşkilat qeyri-qanuni şəkildə ermənipərəst qüvvələr tərəfindən maliyyələşdirilir. Bundan əlavə, təşkilatın sosial şəbəkə hesablarındakı paylaşımlarının böyük əksəriyyəti Azərbaycan dövlətinə qarşı yönəlib. Onun idarə heyətinin rəhbəri Jon Eibner sosial şəbəkələrdə Ruben Vardanyanın təbliğatına aktiv şəkildə dəstək verir. Həmçinin BMT tədbirlərində təşkilatın adından çıxış edənlər arasında Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyanın da olması təşkilatın müstəqil fəaliyyətini şübhə altına alır”.

Onu da qeyd edək ki, həmin vaxt bu qurum layiq olduğu cavabı almışdı. Amma müəyyən vaxt keçəndən sonra QHT yenidən ortaya çıxaraq BMT-nin mandatından danışmağa başlayıb. Hazırda BMT İnsan Hüquqları Şurası 14 ölkə üzrə xüsusi məruzəçi mandatını həyata keçirir. Amma bu mandatlar ciddi insan hüquqları pozuntuları, davam edən münaqişə və beynəlxalq hüququn aşkar şəkildə pozulduğu hallar zamanı tətbiq olunur. Qarabağ məsələsində isə vəziyyət tamamilə fərqlidir. Çünki Ermənistanın baş naziri Nikol Paşinyan dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan edib. Tərəflər arasında sülh sazişinin mətni razılaşdırılıb və bu gün mübahisəli məsələ kimi yalnız Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları qalır. Bu maneə də aradan qaldırıldıqdan sonra tərəflər arasında sülh müqaviləsi imzalanacaq. Belə olan halda, BMT çərçivəsində Qarabağa dair ayrıca məruzəçi təsis etmək təşəbbüsünün nə hüquqi, nə də siyasi əsası var.

Aydın görünür ki, ermənipərəst dairələr, xüsusilə də diaspor və lobbi strukturları, münaqişənin bitməsinə və yeni regional əməkdaşlıq mərhələsinin başlanmasına baxmayaraq, Qarabağ üzərindən Azərbaycana siyasi təzyiq göstərmək niyyətindədirlər. Bu günlərdə ABŞ Konqresində və Avropa dairələrində bəzilərinin yenidən “ermənilərin geri qayıdışı”, “pozulmuş hüquqlar” kimi mövzularda spekulyativ çıxışlar etməsi bu strategiyanın tərkib hissəsidir.

“Dağlıq Qarabağ üzrə məruzəçi” təşəbbüsü də bu kampaniyanın davamıdır. Onlar unudurlar ki, Azərbaycan beynəlxalq hüquq çərçivəsində öz ərazisində suverenliyini bərpa edib və bu zaman heç bir etnik təmizləmə, zorakılıq və ya hüquq pozuntusu qeydə alınmayıb. Bu, faktlara əsaslanan reallıqdır və bunu BMT-nin müşahidə missiyaları da təsdiqləyib.

Beləliklə, erməni lobbisinin və onun dəstəklədiyi QHT-lərin BMT İnsan Hüquqları Şurası vasitəsilə “xüsusi məruzəçi” mandatı təsis etdirmək cəhdi nə hüquqi baxımdan əsaslıdır, nə də beynəlxalq sülh və əməkdaşlıq məqsədlərinə xidmət edir. Əksinə, bu təşəbbüs sülh gündəliyini pozmağa, Azərbaycanı haqsız ittihamlarla üz-üzə qoymağa və regionda yeni gərginlik ocağı yaratmağa yönəlib.



Son illər Azərbaycan beynəlxalq arenada fəal diplomatik xətt yürüdərək, regional və qlobal proseslərdə əhəmiyyətli rol oynamağa başlayıb. Xüsusilə BMT çərçivəsindəki fəaliyyəti, Qoşulmama Hərəkatına uğurlu sədrliyi, iqlim dəyişikliyi və enerji təhlükəsizliyi kimi qlobal çağırışlara verdiyi töhfələr ölkəmizin beynəlxalq nüfuzunu xeyli artırıb. Politoloq Cəsarət Hüseynzadənin sözlərinə görə, bu uğurlar Azərbaycanın beynəlxalq səviyyədə zərər görməsinin qarşısını alan mühüm faktorlardan biridir: “Bəzi qeyri-hökumət təşkilatlarının, xüsusən də separatizmi açıq şəkildə dəstəkləyən “Christian Solidarity International” kimi qurumların insan hüquqları adı altında təşəbbüslərlə çıxış etməsi tamamilə qəbuledilməzdir. Bu təşkilat açıq şəkildə müharibə cinayətləri törətmiş şəxsləri – Araik Harutyunyan, Arkadi Qukasyan, Bako Saakyan və digərlərini müdafiə etməklə Azərbaycan dövlətinə və onun beynəlxalq hüquqa əsaslanan haqlı mövqeyinə qarşı çıxır”. C.Hüseynzadə vurğulayır ki, bu şəxslərin Ermənistanla birlikdə Azərbaycana vurduğu maddi zərər 150 milyard dollar civarındadır: “Məsələnin digər tərəfi ondan ibarətdir ki, Azərbaycan suveren ərazisi olan Qarabağda yaşayan erməni əsilli əhalinin təhlükəsizliyinə təminat verib, onların cəmiyyətə inteqrasiyası üçün elektron sistemlərlə çevik mexanizmlər qurub. Qarabağdakı erməni əhalinin könüllü şəkildə ərazini tərk etməsi isə zorla deyil, məhz Azərbaycanın verdiyi təhlükəsizlik zəmanəti çərçivəsində baş verib”.

Politoloq hesab edir ki, Cənubi Qafqazda sülh və sabitliyə doğru irəlilədikcə, müəyyən kənar qüvvələrin yenidən fəallaşması müşahidə olunur. “Christian Solidarity International” kimi qurumlar əvvəldən Azərbaycanın əleyhinə mövqe tutmuş və Qarabağda separatçılığı dəstəkləmişdir. Lakin regionda dəyişən geosiyasi konfiqurasiya bu təşkilatları dəstəkləyən yeni dairələrin də meydana çıxmasına yol aça bilər. Buna baxmayaraq, onların uğursuzluğa düçar olacağı şübhəsizdir.

C.Hüseynzadə Azərbaycanın beynəlxalq hüquqa və regional sabitliyə əsaslanan mövqeyi, artan diplomatik təsiri və faktlara söykənən siyasəti fonunda bu cür destruktiv təşəbbüslərin perspektivsizliyi aydın göründüyü qənaətindədir: “Beləliklə, BMT-də Azərbaycanın əleyhinə xüsusi bir təsisatın yaradılması və ya anti-Azərbaycan qərarının qəbul edilməsi nəzəri baxımdan mümkün olsa da, reallıqda belə bir addımın həyata keçməsi çətindir. Geosiyasi reallıqlar, diplomatik balans və Azərbaycanın beynəlxalq tərəfdaşlıqları belə təşəbbüslərin qarşısını alacaq gücdədir. Lakin bu, ehtiyatı əldən verməmək və diplomatik sahədə fəallığı davam etdirmək zərurətini aradan qaldırmır”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***



# İranın Ermənistandakı səfirinin iddiaları qəbuledilməzdir

**“İranın Ermənistandakı səfiri Mehdi Sübhaninin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndidə keçirilmiş 17-ci Zirvə görüşünün yekun sənədi ilə bağlı iddiaları qəbuledilməzdir”. Bu sözləri Azərbaycanın XİN-in mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.**

O, Sübhaninin diqqətinə çatdırıb ki, Zirvə görüşünün nəticələrinin əks edildiyi Xankəndi Kommünikesi ECO üzvü olan dövlətlərlə əvvəlcədən razılaşdırıldığı kimi, əvvəlki Zirvə görüşlərinin təcrübəsinə uyğun olaraq, üzv dövlətlərlə razılaşdırılmasına ehtiyac yaranmadan sammitin sədrinin xülasəsi formatında tərtib edilərək təşkilatın rəsmi internet səhifəsində dərc olunub.

Bu halda, İran səfirinin guya Xankəndi Kommünikesinin qəbul olunması və İran tərəfinin ona qeyd-şərt qoyması barədə iddiaları real vəziyyəti əks etdirmir. Diplomatik praktikada qeyd-şərt yalnız danışıqlar nəticəsində qəbul edilmiş qərarlara münasibətdə verilə bilər.

“Həqiqət budur ki, İran İslam Respublikası da daxil olmaqla, ECO-nun bütün üzvləri İslam Əməkdaşlıq Təşkilatının da üzvləridir və İran da daxil olmaqla, həmin dövlətlərin hamısı iyunun 21-22-də İstanbulda keçirilmiş ECO Nazirlər Şurasının 51-ci sessiyasının yekununda danışıqlar nəticəsində qəbul edilən “Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ” adlı qətnamədə və həmin sessiyanın yekun siyasi sənədi olan İstanbul Bəyannaməsində Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyini ifadə edib, habelə Ermənistan tərəfindən sözügedən İcmanın hüquqlarının inkar olunmasını qınayıb”, - deyə A.Hacızadə bildirib.

XİN sözçüsü qeyd edib ki, Xankəndi Kommünikesi isə ECO-nun məhz bu konsensusla qəbul olunmuş Bəyannaməsinə istinadı ehtiva edir.

“Bununla əlaqədar, İran səfirinin Ermənistanın “Armenpress” agentliyinə verdiyi müsahibədə səsləndirdiyi fikirlər siyasi manipulyasiya və riyakarlıqdan başqa bir şey deyil”, – deyə o əlavə edib.

***XQ***

**Replika**

# İran səfiri İrəvandan Bakıya “hücum” edir

**Vaxtilə Qarabağda yaşamış ermənilərin hüquqlarının müdafiəsinin vacibliyindən danışan İranın Ermənistandakı səfiri Mehdi Sübhani bu məsələnin “yaraya döndüyünü və onun sağalmasına ehtiyac duyulduğunu” deyib.**



Qısa müddət İİR-in Bakıdakı səfirliyində çalışan, son iki il yarımda İrəvanda lövbər salan üzdəniraq diplomatın əsl siması məhz orada üzə çıxmağa başladı. Onun fəaliyyətinin İran–Azərbaycan münasibətlərinin səmimi qonşuluq və faydalı əməkdaşlıq notlarına köklləndiyi indiki durumuna xələl gətirdiyi, “qırmızı xətti” dəfələrlə keçdiyi barədə əvvəllər də yazmışıq. Bəlkə, o, doğrudan da səfir statusuna uyğun gəlməyən siyasi fəaliyyəti ilə “qırmızı xətti” keçdiyinin fərqində deyil? Ortada başqa maraqların olduğu ehtimalını da istisna etmək olmaz. Yoxsa Sübhani “ermənilərin hüquqlarının müdafiəsi” üçün bu qədər canfəşanlıq etməzdi. Onun aşkar və gizli bəyanatlarında erməndən daha çox ermənilik etdiyi nəzərdən yayınmayıb. Mehdi Sübhani adlı diplomatın İranın Cənubi Qafqaza yönəlik siyasətinin “qarayarasına” çevrildiyi bütün parametrləri ilə göz qabağındadır.

ARAYIŞ: 1967-ci ildə İranın şimalındakı Gülüstan əyalətində doğulan Mehdi Sübhani İran–İraq müharibəsi iştirakçısıdır. Tehran Universitetində beynəlxalq münasibətlər üzrə təhsil alan gələcək səfir hətta sahənin elmlər doktoru dərəcəsinədək “yüksəlməyi” bacarıb. Ərəb, ingilis, Azərbaycan və rus dillərini bilən Sübhani buna qədər İranın Pakistan, Ukrayna və Türkmənistandakı səfirliklərində çalışıb. 1990-cı illərin əvvəllərində isə İranın Bakıdakı səfirliyində III katib vəzifəsində işləyəndə Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri ilə yadda qalıb. O zaman Sübhaninin SEPAH-la yaxın əlaqələrinin olması barədə mediada məlumatlar yer almışdı.

*

İrəvandan Bakıya “hücumlar” edən, bütün məsələlərdə sırf Ermənistanın mənafeyini əlində bayrağa çevirən üzdəniraq səfir siyasətçi deyil, diplomat olduğunu tez-tez “unudur”. Mehdi Sübhani Ermənistana səfir təyin olunanda Türkiyə mediasında maraqlı məlumat yayılmışdı. “Türkiyə” qəzetinin yazdığına görə, Sübhaninin İrəvana göndərilməsində məqsəd onun Suriya təcrübəsini Qarabağda tətbiq etməsidir. Xatırladaq ki, o vaxt erməni separatçılarının tör-töküntüləri hələ Xankəndində idilər. Onun İrəvana çatar-çatmaz Qarabağ separatçılarını dəstəkləyən açıqlama verməsi burada hansı “təcrübədən” bəhrələnəcəyini ortaya qoymuş oldu. Sübhaninin hay sevgisinin İranda yaşayan azərbaycanlılara patoloji nifrətindən qaynaqlandığını deyənlər yanılmırlar.

İki il bundan əvvəl təxribatçı diplomat “Ermənistanın sərhədinin dəyişdirilməsinin mümkünsüzlüyü” kimi hədyana baş vurmuş və bu zaman İİR-in Ali rəhbəri Əli Xameneidən sitat da gətirmişdi: “Ermənistanla bağlı siyasətimiz olduqca prinsipialdır. İranda hakimiyyətə gələn hökumətlər həmin siyasət çərçivəsində hərəkət edirlər. İranın Ermənistana qarşı prinsipial siyasəti İran inqilabının lideri tərəfindən dilə gətirilib. Bunu Ali liderimiz baş nazir Nikol Paşinyanla Tehran görüşündə də vurğulayıb. Biz Ermənistanın ərazi bütövlüyünə hörmət edirik və onu dəstəkləyirik. Beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsi, eləcə də istənilən geosiyasi dəyişikliyin əleyhinəyik”.

M.Sübhani erməni jurnalistin “Azərbaycanın Ermənistana mümkün müdaxiləsi halında İranın reaksiyası necə olacaq?” təxribatçı sualına elə eyni üslubda və tonda cavab vermişdi. O, aşkar şəkildə ölkəsinin Azərbaycana qarşı Ermənistana hərbi dəstək verməyə və bu yöndə əməkdaşlığa hazır olduğunu vurğulamışdı.

Yaqin rəsmi Tehran tarixin arxivinə göndərdiyimiz keçmiş Qarabağ problemi ilə bağlı mövqeyi ilə heç də üst-üstə düşməyən açıqlamalar verən Ermənistandakı səfiri Mehdi Sübhaniyə yerini və həddini göstərməyin vaxtının çatdığının fərqindədir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Folklor, folklorşünaslıq və dövlətçilik



I MƏQALƏ

## Azərbaycançünaslıq və folklorşünaslıq

AMEA-nın yeniləşmə kursunun 7 prioritet istiqamətlərindən birincisini Azərbaycanın ali elmi təşkilatının prezidenti, akademik İsa Həbibbəyli aşağıdakı kimi müəyyən etmişdir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycançünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir".

Bəs elmi praktiki fəaliyyətdə AMEA-nı Azərbaycançünaslığın mərkəzinə necə çevirmək olar? Əlbəttə, bu məsələ çoxlu sayda fəaliyyət aspektlərinin qarşılıqlı əlaqəsinin təminini tələb edir. Lakin aydındır ki, Azərbaycançünaslıq elmi gerçəklik kimi cəmiyyətin bütün sferalarına aid olan tədqiqatları Azərbaycan naminə özündə ehtiva etməlidir. Bu o dərəcədə aydındır ki, belə olmasa hansı "Azərbaycan" və "şünaslıq"dan danışa bilərik? Folklor və folklorşünaslıq bu sualın işığında çox parlaq görünür.

Birincisi, folklor özlüyündə xalqın yaradıcılığıdır.

İkincisi, həmin keyfiyyətdə folklor haqqında nəzəri təsəvvürlər sistemi olan (çox ümumi götürürük) folklorşünaslıq folklorun sosial mem (və ya kod) kimi özünütəsdiqinin "semantik sahəsidir". Dövlət-folklor münasibətləri kontekstində məsələnin şüur hadisəsi kimi əyaniləşməsi maraqlıdır.

## Artefaktdan intellekt faktına

Folklor elementinin real şüur təcrübəsi olmasının yolu artefaktın intellekt faktına çevrilməsindən keçir. Məhz intellekt faktı kimi folklor elementi sosial mem (və ya kod) funksiyasını yerinə yetirir. Deməli, təhtəlşüurdan obrazın (artefaktın) şüur faktına çevrilməsi özündə sırf idraki məqamla yanaşı, sosial mühitdə mənalanmasını da ehtiva edir. Lakin folklorun bu mərhələdə mənalandırılması sübutluluq kriteriyası ilə deyil, inanma və inandırma kriteriyası mexanizmi ilə reallaşır. Buna görədir ki, folklor özlüyündə sübutu deyil, inancı ehtiva edir.

Məsələn, Novruza Azərbaycan xalqının inamı vardır. Kimsə qapı ağzını pusmağın və ya papaq atmanın məntiqi sübutunu birbaşa folklorda görmür. Əgər hansısa məntiqi sübut elementi varsa, o artıq folklor deyil, folklorşünaslıqdır.

## Folklor və doksa

Fəlsəfədə inama və inandırmağa əsaslanan mənəvi, şüuri, sosial-mədəni fəaliyyətə "doksa" deyirlər. "Doksa" yunancadan tərcümədə "rəy", "baxış" anlamını verir və bütövlükdə kollektivdə ümumi rəyi ifadə edir. Ondan sofistlər, Platon, Aristotel və başqaları istifadə etmişlər. Doksadan inandırma etikası yaranır. Burada inandırma sübuta deyil, əksəriyyətin ümumi rəyinə əsaslanır.

Deməli, folklor özlüyündə əksəriyyətin hansısa məsələ ilə bağlı ümumi baxışı üzərində qurulur. Lakin o, həm də etnosun həyat təcrübəsinin, şüuri ilə praktiki fəaliyyətin vəhdətidir. Bu keyfiyyətdə folklorun cəmiyyətdə yeri və rolunun başlıca olaraq folklorşünaslıq vasitəsi ilə dərki ön plana çıxır. Akademik İsa Həbibbəylinin tezisinin elmi anlamı bu məqamla bağlıdır.

## Folklor və epistema

Deməli, folklor xarakterli psixoloji artefaktın intellekt faktına çevrilməsi prosesinin "digər qanadı" epistemik sübutluluqla bağlıdır. Bu isə artıq folklorşünaslığın meydanıdır. Bəs folklorun epistemik funksiya yerinə yetirməsinə zərurəti fəlsəfi necə izah etmək olar? Bu zərurət folklorun mahiyyətindən və yerinə yetirməli olduğu funksiyanın kollektiv mövcudluq üçün təbii olmasından qaynaqlanır.

Çünki folklorun özü ilə yanaşı, onun elmi dərki olmasa, cəmiyyətdəki funksiyası "ölü" olardı. Folklor doksa olaraq epistemik sübutluluqla ictimai şüurun elementinə çevrilir və bu keyfiyyətdə birbaşa sosial-mədəni praktikada "kodlaşır". Bununla folklor bütün cəmiyyətin həyatının sferalarında sosial-mədəni mem kimi funksiya yerinə yetirmək mexanizmi əldə edir.

Belə alınır ki. cəmiyyətdə folklorun necə dərk edilməsi faktiki olaraq onun kollektiv reallıq və onun mühüm tərkib hissəsi olan dövlətçilikdə yeri və rolunu müəyyən edir. Bu keyfiyyətdə folklor dövlət üçün (daha doğrusu, idarə edənlər üçün) xalqın təbii mənəvi-əxlaqi, sosial-psixoloji və mədəni "sifarişi"dir. Dövlət həmin kontekstdə folklora dövrün tələbinə uyğun reaksiya verməsə, perpsketivli və dayanıqlı tərəqqidən söhbət gedə bilməz. Bu mənada folklor dövlət quruculuğunun hər sferasında və hər anında mövcuddur.

Yuxarıdakı qısa izahlardan aydın olur ki, folklorun sosial-mədəni və şüur hadisəsi kimi kollektiv reallıq mühitində nəticəverici funksiyanı yerinə yetirə bilməsi üçün epistemik fəaliyyətin institutlaşması arxivacibdir. Yəni dövlətdə elə bir sosial-mədəni institut olmalıdır ki, daim folklorun folklorşünaslıq vasitəsi ilə cəmiyyətin bütün sferalarına müsbət anlamda proyeksiyasına əsas yaratsın. Həmin funksiyanı dövlətdə elmi müəssisə yerinə yetirə bilər. Azərbaycan üçün bu, AMEA-nın bir də bu prizmada əhəmiyyətini və aktuallığını göstərir.

## AMEA-da məruzə

Bütün bunların fonunda iyulun 7-də AMEA Rəyasət Heyətinin "Elm və təhsil" şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavərinin "Postmodern çağda folklor və dövlətçilik münasibətləri: diskursiv baxış" mövzusunda məruzəsi böyük maraq doğurur. Məruzədə irəli sürülən əsas tezisləri qısa olaraq belə ifadə etmək olar:

1. Dövlət və folklor iki sosial-mədəni təsisat olaraq bir-biri ilə qarşılıqlı münasibətdə olurlar. Bu münasibətlər tarixi dövrün özəllikləri fonunda fərqli məzmun ala bilər.

2. İndiki postmodern mərhələdə folklor və dövlət münasibətlərinin diskursiv spesifikası elmi-nəzəri müəyyənləşdirilməlidir;

3. Hazırkı mərhələdə dövlət-folklor münasibətləri istiqamətində "araşdırmaların aparılmasının elmi olmaqla yanaşı, müasir qloballaşma şəraitində milli dövlətçilik maraqlarının qorunması, milli ideoloji təhlükəsizliyin təmin edilməsi baxımından olduqca mühüm tətbiqi əhəmiyyəti də vardır".

Aydındır ki, məruzənin əsas elmi hədəfinə "folklorşünaslıq azərbaycançünaslığın hansı anlamlarla atributlarından biri ola bilər?" sualı kontekstində baxmaq yuxarıdakı ümumnəzəri mülahizələr fonunda aktual görünür.

## Maraqlı və əhəmiyyətli tezis

Müzakirələri yekunlaşdıran zaman akademik İsa Həbibbəyli fəlsəfi baxımdan maraqlı və əhəmiyyətli olan bir tezis irəli sürdü – "məruzənin mövzusu kontekstində dövlətçilikdə folklordan çox folklorşünaslığın rolu ön sıraya çıxır". Bütövlükdə isə, AMEA prezidentinin fikrinə görə, "folklor milli dövlətçilik təfəkkürünün formalaşmasında, gələcək nəsillərin suverenlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır və bu mənada folklorşünas alimlərin üzərinə böyük məsuliyyət düşür".

Əlbəttə, özlüyündə audentik folklorun (real olaraq necə varsa, həmin məzmunda) bütövlükdə cəmiyyətin mövcudluğu, mənəvi-əxlaqi, mədəni təhlükəsizliyi, təkamülü baxımından vacibliyini kimsə inkar edə bilməz. Hər bir etnosun mövcudluq tarixi bunun sübutudur. Məruzədə folklorun, ümumiyyətlə. dövlətçilik və ayrıca Azərbaycan dövlətçiliyi kontekstində qoyulması artıq mühüm bir problemə kreativ yanaşma nümunəsidir. Onun başqa aspektlərini bir kənara qoyaraq (çünki çox geniş mövzudur) biz iki cəhət üzərində dayanaq.

Birincisi, "müasir Azərbaycan folklorşünaslığının müstəqil dövlət quruculuğu prosesində yeri və rolu nədən ibarətdir?" sualına cavab axtaraq.

İkincisi, "AMEA-nın yeniləşməsi kursunun ruhu, mahiyyəti və reallaşma mexanizmləri kontekstində folklorşünaslıqla azərbaycançünaslığın münasibətləri necə olmalıdır?" sualına cavab axtaraq.

İlk baxışdan xalq yaradıcılığının həm cəmiyyətin formalaşması, həm də onun idarəolunmasında vacib rol oynaması aksiom kimi qəbul edilir. Çünki söhbət kollektiv birgəyaşam üsulundan gedirsə, hər şeydən öncə bu prosesin daşıyıcısının fəaliyyəti əhəmiyyətlidir. O cümlədən, dövlətin yaranması və funksiyasında onu yaradan xalqın yaradıcılığı necə nəzərə alınmaya bilər? Xüsusi olaraq, Azərbaycanda dövlət xalq suverenliyinin birbaşa təmini əsasında qurulur. Bu kimi özəlliklərə AMEA prezidentinin yuxarıda vurğuladığımız tezisi və məruzənin əsas məqamları fonunda fəlsəfi-nəzəri prizmada qısa nəzər salmaq faydalı ola bilər.

## Məsələnin fəlsəfi tərəfi haqqında

Folklor-dövlət münasibətlərinin postmodern mərhələdə özəlliyi haqqında məruzədə irəli sürülən fikirlərdən aydın olur ki, yanaşma müxtəlifliyinin hökm sürdüyü və faktiki olaraq bütün modern meyarların arxa plana atıldığı bir dönəmdə folklorun dövlətçilik kontekstində aktuallığı daha da çoxalır. Özündə kollektiv tarixi yaddaşı "daşıyan" folklor cəmiyyətin bütövlüyünün saxlanmasının və toplumsal dəyərlərin transformasiyasının vasitələrindən biri kimi ənənə ilə müasirliyin "barış sahəsi" funksiyasını dövlətçilik xaytinə yerinə yetirməlidir. Bu keyfiyyətdə folklorşünaslıq Azərbaycançünaslığın atributlarından biri ola bilər.

Azərbaycançünaslığın altsistemlərindən biri kimi folklorşünaslıq cəmiyyətin özünə empatiyasının təşkiledicisi rolunu oynamalıdır. Söhbət toplumun hansısa fəaliyyət çərçivəsinə salınmasından getmir. Məsələ onunla bağlıdır ki, postmodern mərhələdə cəmiyyətin bütövlüyünün təmini arxiəhəmiyyətli problem halına gəlir. Müxtəlif istiqamətlərdən o qədər fərqli təsirlər olur ki, onların qarşılıqlı təsiri sahəsində xalq özünü "itirə" bilər.

Məsələn, indi folklorun internet növündən danışırlar, rəqəmsal folklordan bəhs edirlər. İstənilən kəs kompüter arxasında oturmaqla müasir şəhər folklorunu yaradanlardan biri kimi çıxış edə bilər. Dünyanın istənilən ölkəsində folklorun məzmunu, vəzifələri və dəyişmə dinamikası ilə tanış ola bilər. Başqa variantlar da mövcuddur.

Belə şərtlər daxilində istənilən cəmiyyətin dövlətçilik kontekstində bütövlüyünü və milli maraqlarını saxlaması vacib məsələ kimi qəbul edilir. Buradan avtomatik olaraq belə bir qənaət alınır: Azərbaycan üçün folklorşünaslığın müasir dövlətçilik tələbləri əsasında Azərbaycançünaslığın konseptual səviyyədə altsisteminə çevrilməsi olduqca vacib məsələdir. Folklorşünaslığın bu keyfiyyətdə funksiyalaşdırılmasının yeni səviyyəyə yüksəldilməsi zərurəti dərk edilməlidir. Eyni zamanda, onun Azərbaycançünaslığın mühüm tərkib hissəsi kimi inkişafı təmin edilməlidir. Bu prosesin ümumelmi mexanizmi necə müəyyən etmək olar?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Yaşıl" baş plan qədim Ordubadı gəncləşdirəcək

**Ordubad Naxçıvan Muxtar Respublikasının qədim və zəngin mədəniyyət daşıyıcısı olan şəhərlərindən biridir. Uzaq keçmişdən bu şəhər səyyah və tarixçilərin diqqətini cəlb etmiş, haqqında xeyli maraqlı faktlar və təəssüratlar qələmə alınmışdır.**

Ordubadın özünəməxsusluğu həm də onun çoxəsrlik şəhər mədəniyyət üzərində formalaşaraq inkişaf etməsidir. Maraqlı relyef və coğrafi ərazisi, əlverişli iqlimi, insanlarının qonaqpərvərliyi, elm və mədəniyyətə münasibəti ilə yanaşı, şəhərin özünəməxsus məhəllə və infrastrukturu da hər zaman bura yolu düşənlərin marağını çəkmişdir. Son illərdə isə muxtar respublikanın digər bölgələri kimi Ordubadın da sosial-iqtisadi inkişafı yönündə müvafiq addımların atılmasına başlanılıb. Xüsusilə, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" bu sahədə həyata keçiriləcək tədbirlərə yaşıl işıq yandırıb.

Görüləcək işlər içərisində Şahbuz, Culfa və Babək şəhərləri kimi Ordubad şəhərinin də baş planı beynəlxalq təcrübəyə əsaslanaraq yenilənir. Bu istiqamətdə işləri İsveçrənin "SA Partners" şirkəti həyata keçirəcək. Məqsəd şəhərlərin gələcək inkişafını düzgün planlamaq, tarixi irsi qorumaq və müasir şəhərsalma standartlarına uyğun yeni nəfəs gətirməkdir. Xüsusilə Ordubadın baş planı burada xüsusi diqqət mərkəzindədir. Şəhərin özünəməxsus memarlıq üslubu, qədim məhəllələri və tarixi ruhu layihənin əsas ilham mənbəyidir. Tarixi Sərşəhər kimi ərazilərin qorunması prioritet hesab olunur. Eyni zamanda bu məkanlarda müasir şəhərsalma prinsipləri tətbiq edilərək, sakinlərin rahatlığı üçün yeni həllər təklif ediləcək.

Şirkətin nümayəndəsi Angela Viestin layihə ilə bağlı mətbuata açıqlamasında bildirib ki, baş planda yeni yaşayış məntəqələrinin salınması və müasir standartlara cavab verən mənzillərin inşası nəzərdə tutulur. Bununla yanaşı, şəhərin tarixi hissələri ilə yanaşı, müxtəlif funksiyalara malik yeni binalar, turizm infrastrukturu, inzibati və ictimai binaların tikintisi də planda əks olunacaq. Bütün bu addımlar Ordubad sakinlərinin həyat keyfiyyətini yüksəltməklə yanaşı, şəhərin funksionallığını da artıracaq.

Şirkət nümayəndəsinin sözlərinə görə, Ordubadda "15 dəqiqəlik şəhər" konsepsiyası tətbiq ediləcək. Belə ki, bu çərçivədə yolların genişləndirilməsi, yeni ictimai nəqliyyat xətlərinin yaradılması və piyada əlçatanlığının artırılması xüsusi yer tutur. Bu yanaşmaya əsasən, şəhər sakinləri yaşadıqları ərazidən uzaqlaşmadan – maksimum 15 dəqiqəlik məsafədə alış-veriş, səhiyyə, təhsil, istirahət və digər əsas xidmətlərdən istifadə edə biləcəklər.

Ordubadda "yaşıl şəhər" konsepsiyası da tətbiq olunacaq. Bu çərçivədə mövcud yaşıl ərazilərin qorunması, yeni ağacların əkilməsi və təbii resurslardan ağıllı istifadə vacib hədəflər kimi müəyyən edilib. Ənənəvi həyat tərzinin ayrılmaz hissəsi olan kəhrizlər də qorunacaq və şəhərin ümumi həyatında öz funksional rolunu davam etdirəcək. Bu qədim su şəbəkələri həm mədəni irs, həm də müasir dövrdə praktik əhəmiyyət daşıyan elementlər kimi qiymətləndirilir. Eyni zamanda şəhərin müxtəlif



nöqtələrində "communal pocket parks", yəni cəmiyyətin istifadəsinə açıq olan kiçik yaşıl sahələr – "mini-parklar" yaradılacaq ki, bu da insanların rahat istirahətinə imkan verəcək.

Ordubadda görüləcək işlər çərçivəsində təhsil və səhiyyə infrastrukturunun genişləndirilməsi, kənd təsərrüfatında innovativ yanaşmaların tətbiqi də diqqəti çəkən məqamlardandır. Bu layihənin hazırlanma prosesinə yerli əhali, mütəxəssislər və sahə üzrə ekspertlər də cəlb olunub. Müxtəlif mərhələlərdə onların fikirləri nəzərə alınaraq planlara inteqrasiya olunur. İnsanların burada yaşayıb işləməsi üçün uyğun infrastrukturun yaradılması ilə bərabər, kənd təsərrüfatı sahəsində "smart" texnologiyalara əsaslanan modelin tətbiq olunacağı da nəzərdə tutulub. Bu yanaşma, Ordubadın ənənəvi kənd təsərrüfatı sahələrində məhsuldarlığın artırılmasına imkan verəcək, həm də yeni aqromüəssisələrin yaradılmasına şərait yaradacaq.

Qeyd edək ki, hazırda baş plan üzrə əsas mərhələlər tamamlanmaq üzrədir. Şəhərdə nəzərdə tutulan dəyişikliklər tədricən həyata keçiriləcək və sakinlər bu inkişafı mərhələli şəkildə hiss edəcəklər.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin Naxçıvan müxbiri***

# Qəbələ Beynəlxalq Musiqi Festivalı başlayır

**İyulun 24-də Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"nın dəstəyi ilə XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı başlayır.**




Bu il dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümü qeyd olunur. Məhz bundan irəli gələrək XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı Üzeyir Hacıbəylinin 140 illik yubileyi çərçivəsində keçirilmək məsuliyyətini öz üzərinə götürüb və tədbirin təntənəli açılışı da Üzeyir bəyin "Cəngi" əsəri ilə başlayacaq.

Bununla yanaşı, görkəmli musiqi xadimləri Rauf Atakişiyevin 100, Vasif Adıgözəlovun 90 illik yubileyləri də festival çərçivəsində xüsusi konsert proqramları ilə qeyd ediləcək.

İyulun 29-dək Qəbələ müxtəlif ölkələrdən gələn tanınmış ifaçıların, gənc istedadların, musiqi kollektivlərinin bir araya toplandığı musiqi səhnəsinə çevriləcək.

Festival günlərindəki konsertlərə giriş sərbəstdir.

***XQ***

# KOBİA 30 KOB-a 500 min manat qrant ayırıb

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) keçirdiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi üçün elan edilən 7-ci qrant müsabiqəsinə təqdim olunan layihələrdən 30-na, ümumilikdə, 500 min manat qrant vəsaitinin ayrılması barədə qərar verilib.**




KOBİA-nın məlumatına görə, qalib layihələr kənd təsərrüfatı, sənaye, alternativ enerji, ətraf mühitin qorunması, xidmət, təhsil, maliyyə və s. kimi sektorlarda yeni məhsul və xidmətlərin, rəqəmsal həllərin yaradılması, eləcədə təkmilləşdirilməsini, tədqiqatların aparılmasını və digər istiqamətləri nəzərdə tutur.

Layihələrin ekspertizası məqsədilə yaradılan Ekspert Komissiyasının keçirdiyi iclasında bildirilib ki, 7-ci qrant müsabiqəsinə KOB subyektləri tərəfindən 287 layihə təqdim edilib. KOB subyektlərinə məxsus layihələrin 89-u hüquqi, 198-i fiziki şəxslərə, o cümlədən 275-i mikro, 12-i kiçik sahibkarlıq subyektlərinə məxsus olub. Müsabiqəyə təqdim olunan layihələrdən 85-i təhsil, 24-ü elm, 48-i tədqiqat, 130-u dəstək layihələri kimi qeydə alınıb.

Yeri gəlmişkən, xatırladaq ki, regionlarda mövcud biznes potensialının reallaşdırılması, yeni kiçik və orta biznes subyektlərinin yaradılması və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, eləcə də iş adamlarının investisiya təşəbbüslərinin dəstəklənməsi məqsədilə KOBİA-nın geniş infrastruktur şəbəkəsi var. Agentliyin məlumatına görə, sahibkarlıq fəaliyyətinə başlamaq və biznesini inkişaf etdirmək istəyən hər bir iş adamı hazırda dəstək və xidmətlər üçün KOBİA-nın KOB evlərinə, 50-dən çox şəhər və rayonu əhatə edən KOB dostu şəbəkəsinə və KOB inkişaf mərkəzlərinə müraciət edir.

Bölgələrdəki sahibkarların biznes sahəsindəki yeniliklər və müasir çağırışlar, mövcud dövlət dəstəyi vasitələri barədə məlumatlandırılması, qarşılaşdıqları məsələlərin, ehtiyac və təkliflərinin öyrənilərək müvafiq qurumlarla birgə həlli məqsədilə indiyədək KOBİA tərəfindən 20 mindən çox sahibkarın iştirakı ilə 580-ə yaxın sahəvi görüş və maarifləndirmə tədbiri təşkil olunub.

KOBİA-dan verilən məlumata əsasən, bu qurum 2019-cu ildən etibarən özünüməşğulluq proqramı çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi ilə sıx əməkdaşlıq edir, proqramın icrasının müxtəlif mərhələlərində adı çəkilən təşkilata dəstək göstərir. Proqrama qoşulmaq istəyən vətəndaşlar, eləcə də proqramın iştirakçısı olmuş və növbəti mərhələdə biznesini inkişaf etdirmək istəyənlər KOBİA-nın ölkənin 50-dən çox şəhər və rayonunda fəaliyyət göstərən KOB dostlarına dəstək üçün müraciət edə bilərlər.

KOBİA özünüməşğulluq proqramına iki istiqamətdə dəstək göstərir. Belə ki, adıçəkilən agentlik proqrama qoşulmaq istəyən vətəndaşların məlumatlandırılması, müvafiq sistemdə qeydiyyata alınması və məşğulluq filialları ilə əlaqələndirilməsinə dəstək olur, namizədlərin təsərrüfatına baxış, proqrama cəlb olunmuş şəxslərin təlimlərində və onlara vəsaitlərin verilməsində iştirak edir.

Agentliyin fəaliyyətində sahibkarların biznes biliklərinin və bacarıqlarının artırılması da xüsusi diqqətdə saxlanılır. İqtisadiyyat Nazirliyinin məlumatına görə, kiçik və orta biznes subyektlərinin bilik və bacarıqlarının yaxşılaşdırılması, sahibkarlığa dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə təkcə keçən il ərzində KOBİA tərəfindən 1047 təlim təşkil olunub. Təlimlər kiçik və orta biznes qurumlarının təlim ehtiyaclarına uyğun olaraq satış, marketinq, mühasibatlıq, işçi heyətinin idarə edilməsi, brendləşmə, biznesdə innovasiyaların tətbiqi, biznes planın hazırlanması, layihələrin idarə olunması, eləcə də "yaşıl" iqtisadiyyat və digər mövzuları əhatə edib..

Eyni zamanda, agentlik 2024-cü ildə kənd təsərrüfatı, istehsal, xidmət və digər istiqamətlərdə 1137 biznes planın ödənişsiz olaraq hazırlanmasına dəstək verib. Ümumilikdə, 2024-cü ildə qurumun biznes biliklərinin və bacarıqlarının artırılması istiqamətində göstərdiyi dəstək və xidmətlərdən 13 mindən çox KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb.

Yeri gəlmişkən, "Startap" şəhadətnaməsi KOB subyektlərini sözügedən sənədi əldə etdikləri tarixdən etibarən innovasiya fəaliyyətindən qazandıqları gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət etməlidirlər.

Sonda onu da qeyd edək ki, cari ilin I yarısında KOB evlərində sahibkarlara 260 minə yaxın xidmət göstərilib. Bu xidmətlərin 170 minə yaxını "Bakı KOB evi"nin, 54 minə yaxını "Yevlax KOB evi"nin, 34 minə yaxını isə "Xaçmaz KOB evi" və onun Xudat şəhərindəki xidmət mərkəzinin payına düşüb. Göstərilən xidmətlərin 232 mindən çoxu dövlət qurumları ("G2B"), 24 mindən çoxu isə biznes qurumları ("B2B") tərəfindən göstərilib.

Beləliklə, KOB evləri sahibkarlara operativlik, şəffaflıq və vətəndaş məmnunluğu prinsipləri əsasında biznes xidmətlərinin göstərildiyi vahid məkandır. Hazırda KOB evlərində biznesin qeydiyyatından başlayaraq inkişaf etdirilməsinə qədər olan bütün zəruri xidmətlər, o cümlədən biznesin qeydiyyatı, lisenziya, icazə və digər sənədlərin alınması, vergi və gömrük məsələləri, güzəştli maliyyə vəsaitlərinə çıxış, kommunal xidmətlərə qoşulma, bank, sığorta, notariat və digər xidmətlər göstərilir. Ümumilikdə Bakı, Xaçmaz və Yevlax KOB evlərində sahibkarlara 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox "G2B" və "B2B" xidmətlər göstərilir. KOB evləri Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturuna daxildir.

# Dövlət Neft Şirkəti uğurlar yolunda

## *Ötən il şirkətin aktivləri 31,6 faiz artaraq 94,7 milyard manata çatıb*

**2024-cü ildə qlobal neft və qaz bazarları geosiyasi gərginliklər, dəyişən tələblər, ənənəvi və bərpa olunan enerji sektorlarına əhəmiyyətli investisiyaların təsiri ilə nəzərəçarpacaq dalğalanmalarla müşahidə olunub. Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) aparılan struktur islahatları, bazar mövqeyini gücləndirəcək satınalmalar və investisiyalar, eləcə də xərclərin optimallaşdırılması sayəsində ötən ili müsbət nəticələrlə başa vurub. Bu barədə məlumatlar qurumun 2024-cü il üzrə maliyyə göstəricilərinə dair hesabatında yer alıb.**




Bildirilib ki, il ərzində bir sıra uğurlu biznes satınalma əməliyyatlarını icra edən ARDNŞ "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətində və Türkiyədəki STAR Neft Emalı Zavodunda mərhələli satınalınma, "Umm Lulu", "SARB", "Bin Nasher" və "Al Bateel" konsessiyasında pay alışı, "Azər-Türk Bank" ASC-nin satınalınması, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" saziş və Bakı – Tbilisi – Ceyhan boru kəməri üzrə əlavə payın satınalınması və "Azərkontrakt" ASC-nin SOCAR-a ötürülməsi əməliyyatlarını həyata keçirib.

Uğurlu islahatların və biznes birləşmələrinin nəticəsi olaraq hesabat ilində şirkətin ümumi aktivlərinin həcmi 31,6 faiz genişlənərək 94,7 milyard manata çatıb. Bununla yanaşı, şirkətin cəmi kapitalı da əhəmiyyətli şəkildə möhkəmlənərək 39,6 faizlik artımla 48,7 milyard manata yüksəlib.

2024-cü ildə Dövlət Neft Şirkətinin kredit öhdəlikləri əvvəlki illə müqayisədə 2 milyard manat azaldılıb. Bununla belə, yeni biznes satınalmaları ("Cənub Qaz Dəhlizi" QSC, STAR zavodu) nəticəsində bu müəssisələrin 7,8 milyard manat kredit öhdəliyi qurumun mövcud kredit öhdəliklərinə əlavə olunub. Eyni zamanda, 2023-cü ildə SOCAR-ın borc öhdəlikləri birgə müəssisələrin borclarının yenidən maliyyələşdirilməsi ilə bağlı olaraq 2,9 milyard manat artıb. Bütövlükdə isə, düzgün maliyyə siyasəti nəticəsində son 3 il ərzində biznes satınalmalarını və birgə müəssisələrin borclarının yenidən maliyyələşdirilməsini çıxmaqla qurumun kredit və uzunmüddətli borc öhdəlikləri 9,1 milyard manat, birgə müəssisələr də nəzərə alınmaqla isə 11,9 milyard manat azalıb.

Hesabata əsasən, qurum 2024-cü ili 2 milyard 927 milyon manat xalis mənfəətlə başa vurub ki, bu da əvvəlki illə müqayisədə 41,2 faiz çoxdur.

Ötən il neft şirkətinin satışdan (əsas əməliyyat) gəlirləri 84 milyard 689 milyon manat (əvvəlki ilə nisbətən 0,6 faiz az), satışının maya dəyəri 77 milyard 296 milyon manat (0,9 faiz çox), ümumi-inzibati xərcləri 2 milyard 252 milyon manat (16,1 faiz çox), paylaşdırma xərcləri 2 milyard 45 milyon manat (7,3 faiz az), əmlak, tikili və avadanlıq silinməsi hesabına gəlirləri 15 milyon manat (25 faiz az), sosial xərcləri 351 milyon manat (17 faiz çox), kəşfiyyat və qiymətləndirmə xərcləri 17 milyon manat (eyni qalıb), gözlənilən kredit gəlirləri 46 milyon manat (əvvəlki il zərər olub), maliyyə xidmətlərindən gəlirləri 18 milyon manat (əvvəlki il olmayıb), maliyyə xərcləri 2 milyon manat (əvvəlki il olmayıb), sair əməliyyat xərcləri 1 milyard 869 milyon manat (27 faiz az), sair əməliyyat gəlirləri 1 milyard 970 milyon manat (2,3 dəfə çox), effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə hesablanan faiz gəlirləri 852 milyon manat (28,3 faiz çox), maliyyə xərcləri 2 milyard 74 milyon manat (13,1 faiz çox), məzənnə fərqindən zərəri 366 milyon manat (49,3 faiz az), xalis monetar mövqe üzrə gəlirləri 1 milyard 114 milyon manat (11,1 faiz çox), birgə müəssislərin maliyyə nəticələri hesabına gəlirləri 540 milyon manat (28,6 faiz az), asılı müəssislərin maliyyə nəticələri hesabına gəlirləri 867 milyon manat (41,7 faiz çox), mənfəət vergisi ödəmələri isə 912 milyon manat (50,5 faiz çox) təşkil edib.

Bu il yanvarın 1-nə şirkətin aktivləri 94 milyard 701 milyon manat olub ki, bu da əvvəlki ilə nisbətən 31,6 faiz çoxdur. Hesabat dövründə şirkətin öhdəlikləri 24 faiz artaraq 46 milyard 44 milyon manata, balans kapitalı isə 39,6 faiz çoxalaraq 48 milyard 657 milyon manata çatıb. Qurumun maliyyə hesabatına əsasən, 2025-ci il yanvarın 1-nə əmlak, tikili və avadanlıqlarının dəyəri 55 milyard 466 milyon manat təşkil edib. Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 96,6 faiz çoxdur. Sözügedən dövrə ARDNŞ-nin birgə müəssisələrə investisiyaları 563 milyon manat, asılı müəssisələrə investisiyaları isə 2 milyard 279 milyon manat təşkil edib. Bu isə ötən il yanvarın 1-nə nisbətən müvafiq olaraq 13,6 dəfə və 2,1 dəfə azdır. Hesabatda qeyd olunub ki, bu il yanvarın 1-nə Azərbaycan Dövlət Neft Şirkətinin depozitləri 2 milyard 840 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 dəfə çoxdur.

Qeyd edək ki, şirkətin 31 dekabr 2024-cü il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatına nüfuzlu beynəlxalq audit qurumu olan "Ernst & Young Holdings (CIS) B.V." tərəfindən dəyişilməmiş (təmiz) rəyi verilib.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ölkə Prezidentinin 13 sentyabr 1992-ci il tarixli fərmanı ilə yaradılıb. 100 faiz dövlətə məxsus şirkətin əsas fəaliyyəti neft, qaz və qaz kondensatlarının hasilatı, emalı və nəql edilməsi, eləcə də neftin, qazın və neft məhsullarının satışından ibarətdir. Qurumun nizamnamə kapitalı 5 milyard 14 milyon manat təşkil edir.

# Azərbaycan–Çin dəmiryol əməkdaşlığı genişlənir

**Xəbər verdiyimiz kimi, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri (ADY) Rövşən Rüstəmovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.**



Səfər çərçivəsində ADY rəhbəri Pekində "Çin Dəmir Yolları" Dövlət Korporasiyasının prezidenti Sun Syudo ilə görüşüb. Görüşdə Çin və Azərbaycan arasında strateji əlaqələrin gücləndirilməsi kontekstində nəqliyyat və logistika sektorunda tərəfdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb. Bildirilib ki, iki ölkənin dəmiryol qurumları arasında əməkdaşlıq tranzit daşımalardan və multimodal həllərdən tutmuş infrastrukturun inkişafı və proseslərin rəqəmsallaşdırılmasına qədər geniş spektri əhatə edir.

ADY sədri qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfəri ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olub. Əməkdaşlığın əsas elementlərindən biri Azərbaycanın Şərqlə Qərb arasında mühüm tranzit əlaqəsi kimi qəbul etdiyi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) inkişafıdır. Çin – Qazaxıstan – Azərbaycan – Gürcüstan – Avropa marşrutu üzrə müntəzəm daşımalar çatdırılma müddətinin azaldılmasına və logistik həllərin şaxələndirilməsinə kömək edir.

Bildirilib ki, səmərəli əməkdaşlığın nəticəsi olaraq 2024-cü ildə iki ölkə arasında dəmiryol nəqliyyatı ilə daşınan yüklərin həcmi 47 faiz artaraq 612 min ton təşkil edib. 2024-cü ildə Çindən 287 blok-qatar qəbul edilib. Bu ilin 6 ayı ərzində bu göstərici artıq 199 blok-qatar təşkil edib. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Söhbət zamanı, həmçinin ADY və Çin Dəmir Yolları arasında əməkdaşlığının Avrasiyanın nəqliyyat əlaqəsinin gücləndirilməsinə və dayanıqlı logistika zəncirlərinin inkişafına mühüm töhfə verdiyi vurğulanıb.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC ilə "Çin Dəmir Yolları" Dövlət Korporasiyası arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumun imzalanmasında məqsəd iki qurum arasında dəmiryol nəqliyyatı və tranzit, həmçinin rəqəmsal layihələrin həyata keçirilməsi üzrə əməkdaşlığın daha da inkişafı və möhkəmləndirilməsidir.

Sənəddə beynəlxalq dəhlizlər üzrə yük daşımaları üçün münbit şəraitin yaradılması yolu ilə regional iqtisadi inteqrasiyanın inkişafına dəstək, idarəetmə proseslərinin optimallaşdırılması və daşıma səmərəliliyinin artırılması, həmçinin müştərilərə daha yüksək xidmət təqdim edilməsi məqsədilə müasir və rəqəmsal texnologiyaların tətbiqinin zəruriliyi, Orta Dəhliz üzrə multimodal daşımaların inkişafının strateji əhəmiyyəti və bu marşrutun Çin və Azərbaycandakı logistik terminallarla bağlantısı, Çinin "China Railway Container Transport Corp. Ltd. şirkətinin Azərbaycan, Qazaxıstan və Gürcüstan dəmiryol qurumları arasında Orta Dəhlizin inkişafı üzrə yaradılmış "Middle Corridor Multimodal Ltd." birgə müəssisəsinə qoşulmasının zəruriliyi və "Kəmər və Yol Təşəbbüsü"nün reallaşdırılması kontekstində dəmiryol sahəsində əməkdaşlığın dərinləşdirilməsi kimi mühüm istiqamətlər qeyd edilib.

ADY sədri Rövşən Rüstəmovun "Qazaxıstan Dəmir Yolu" Milli Şirkəti" SC-nin İdarə Heyətinin sədri Talqat Aldıbergenovla görüşündə isə iki ölkə arasında tranzit daşımalar üzrə əməkdaşlığın daha da genişləndirilməsinin, Çindən Avropa istiqamətində göndərilən konteyner yüklərin təyinat məntəqələrinə vaxtında çatdırılması üçün koordinasiyalı fəaliyyətin gücləndirilməsinin vacibliyi qeyd olunub. Bildirilib ki, Azərbaycan, Qazaxıstan və Gürcüstan arasında yaradılmış "Middle Corridor Multimodal" birgə müəssisəsi Orta Dəhliz üzrə fasiləsiz, etibarlı və səmərəli yükdaşıma əməliyyatlarının təmin edilməsinə dəstək verəcək.

# Manat növbəti 5 ildə də sabit qalacaq

**"Fitch Ratings" beynəlxalq reytinq agentliyinin proqnozuna görə, Azərbaycan manatının ABŞ dollarına de-fakto bağlılığı ən azı 2030-cu ilin sonuna qədər 1,7 manat səviyyəsində saxlanılacaq. Bildirilir ki, hakimiyyətin ortamüddətli perspektivdə valyuta çevikliyinin tədricən artırılması ilə bağlı planları elan etməsinə baxmayaraq, sabit məzənnənin saxlanılması əsas siyasi prioritetlərdən biri hesab olunur.**

Agentlik qeyd edir ki, Azərbaycan Mərkəzi Bankı bank sistemində struktur likvidlik artıqlığının idarə edilməsi vasitələrini inkişaf etdirməyə davam edir, həmçinin pul-kredit siyasətinin transmissiya mexanizminin səmərəliliyini gücləndirir.

"Fitch" analitiklərinin sözlərinə görə, buna baxmayaraq, monetar qərarların iqtisadiyyata təsiri məhdud olaraq qalır. Onlar məhdudlaşdırıcı amillər arasında daxili pul bazarlarının yetərincə inkişaf etməməsini, bank sektorunda yüksək likvidliyi, həmçinin dollarlaşmanın əhəmiyyətli səviyyəsini qeyd edirlər. 2025-ci ilin aprel ayına depozitlərin 40 faizə qədəri azalma tendensiyasına baxmayaraq, xarici valyutada ifadə olunur.

Azərbaycan Mərkəzi Bankı inflyasiyanın qarşısını almaq və makroiqtisadi vəziyyəti sabitləşdirmək məqsədilə 2017-ci ildə milli valyutanın 1 ABŞ dollarına nisbətən məzənnəsini 1,7 manat səviyyəsində



müəyyən edib.

Qeyd edək ki, "Fitch" ilə yanaşı, Niderlandın "ING Group"u və Asiya İnkişaf Bankının analitikləri də manatın dollara bağlılığının 2026-cı ilə qədər saxlanılacağını gözləyirlər. Öz növbəsində, Azərbaycan İqtisadiyyat Nazirliyi və "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi mövcud sabit məzənnə rejiminin ən azı 2028-ci ilin sonuna qədər saxlanılacağını proqnozlaşdırırlar.

# Qaz ixracında 16 illik rekord

**Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi rəqəmlər əsasında apardığı təhlilə əsasən, 2009-cu ildən cari ilin aprel ayının sonunadək Azərbaycan dünya bazarlarına 170 milyard kubmetrdən çox təbii qaz ixrac edib.**



MTM-dən bildirilib ki, 2009-cu ildə ölkəmiz yalnız Gürcüstana təbii qaz ötürürdüsə, cari ilin ilk 4 ayında Türkiyə, Yunanıstan, İtaliya, Bolqarıstan və Serbiya kimi ölkələrə də təbii qaz ixrac edib.

Bu dövr ərzində ən çox təbii qaz Türkiyəyə ixrac edilib – bu həcm 84,57 milyard kubmetr olub. İkinci sırada isə 37,93 milyard kubmetr ilə İtaliya yer alıb. Ölkəmizdən Gürcüstana isə indiyədək 29,66 milyard kubmetr təbii qaz ötürülüb.

Qeyd edək ki, Avropa ölkələrindən Yunanıstan 2020-ci ildən, Bolqarıstan və İtaliya isə 2021-ci ildən davamlı olaraq ölkəmizdən təbii qaz idxal edir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# BMT platformasında Qarabağ həqiqətləri

## İşğala son qoyulması ölkənin iqtisadi bütövlüyünü də təmin edib

**Azərbaycan Baş nazirinin müavini Samir Şərifov İspaniyanın Sevilya şəhərində keçirilən BMT-nin İnkişaf üçün Maliyyələşdirmə üzrə IV Beynəlxalq Konfransının plenar iclasında çıxış edərək bildirib ki, Ermənistan ölkəmizin 20 faiz ərazisini 30 il işğal altında saxlayıb və ölkəmiz 2020-ci ilin noyabrında 44 günlük Vətən müharibəsi ilə bu təcavüzə son qoyub. Yalnız bundan sonra işğaldan azad olunan ərazilərdə tikinti, bərpa–quruculuq işləri başlayıb.**



S.Şərifovun sözlərinə görə, təcavüz nəticəsində Qarabağ və Şərqi Zəngəzurdan didərgin salınan soydaşlarımızın doğma şəhər və kəndlərinə qaytarılması məqsədilə indiyədək Böyük Qayıdış Dövlət Proqramının icrasına büdcədən 15 milyard ABŞ dolları məbləğində vəsait sərf edilib. Baş nazirin müavini daha sonra bildirib ki, Azərbaycan Hökumət Komissiyasının qiymətləndirməsinə əsasən, hərbi təcavüz və işğal nəticəsində Azərbaycana 150 milyard dollar dəyərində zərər vurulub. Zərərin 15 faizdən artıq hissəsi isə ərazilərin minalarla çirklənməsi ilə bağlı olduğundan Prezident İlham Əliyevin qərarı ilə mina təhlükəsizliyi Azərbaycan tərəfindən 18-ci milli Davamlı İnkişaf Məqsədləri (DİM) kimi qəbul edilib və bu yanaşma digər ölkələrə də tövsiyə olunub.

Xatırladaq ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 4 min 866 nəfər itkin düşüb, 100 min nəfər yaralanıb, 50 min nəfər isə müxtəlif dərəcəli xəsarətlər alaraq əlilə çevrilib. Respublikamızın çoxsaylı maddi-mədəni nümunələri, o cümlədən 44 dini məbəd, 18 məscid qəddarcasına dağıdılıb. İşğal altında qalan ərazilərdə 12 muzey və 6 şəkil qalereyası, tarixi əhəmiyyətli 9 saray yerlə bir edilib, 40 min tarixi-etnoqrafik əhəmiyyətə malik eksponat işğalçı ölkəyə daşınıb. 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və xüsusi əhəmiyyətli əlyazma nümunələri yandırılıb.

Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sənaye və kənd təsərrüfatı obyektləri də tamamilə sıradan çıxarılıb. Əkin sahələrinin müəyyən hissəsi işğalçı tərəfindən əkilib-becərilərək əldə olunan məhsul hesabına qazanılan böyük həcmdə vəsait mənimsənilib.

Düşməndən azad edilən ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri Azərbaycanın qarşısında dayanan ən mühüm strateji prioritetlərdən birinə çevrilib. Samir Şərifovun konfransda vurğuladığı kimi, 30 illik işğal nəticəsində didərgin düşən bir milyondan artıq soydaşımızın doğma torpaqlarına qayıtması istiqamətində həyata keçirilən Böyük Qayıdış Dövlət Proqramı xalqımız tərəfindən yüksək dəyərləndirilib.

Hazırkı mərhələyə qədər bu proqramın gerçəkləşdirilməsinə dövlət büdcəsindən yönəldilən 15 milyard dollar vəsait hesabına Qarabağ və Şərqi Zəngəzurda yollar, su və elektrik xətləri, məktəblər, xəstəxanalar və digər infrastruktur obyektləri inşa olunub. Ağalı, Talış, Laçın, Zabux və bir sıra digər kənd və şəhərlərdə məskunlaşma aparılıb.

Bərpa olunan ərazilər yalnız fiziki infrastruktur cəhətdən deyil, həm də sosial-iqtisadi və mədəni dirçəliş baxımından yenidən formalaşır. "Ağıllı" kənd konsepsiyası, "yaşıl" enerji zonası statusu, ekoloji balansın qorunması, müasir şəhərsalma prinsipləri əsasında aparılan tikinti işləri gələcəyə yönəlmiş strateji baxışın təcəssümüdür.

Azərbaycanın Hökumət Komissiyasının hesablamalarına əsasən, Ermənistanın hərbi təcavüzü və işğalı nəticəsində ölkəmizə vurulan zərər 150 milyard ABŞ dollarını ötüb. Bu rəqəm təkcə dağıdılmış infrastrukturla deyil, eyni zamanda, sosial-iqtisadi və ekoloji nəticələrlə də bağlıdır. Ən ağrılı problemlərdən biri isə ərazilərin minalarla çirkləndirilməsidir. Baş nazirin müavini Samir Şərifovun BMT konfransının plenar iclasında vurğuladığı kimi, ümumi zərərin 15 faizdən çoxu məhz minalarla bağlıdır. Təkcə 2020-ci ildən sonra, sülh dövründə minaya düşərək həlak olan və ya ağır yaralanan mülki vətəndaşların və hərbçilərin sayı dəfələrlə artıb.

Yeri gəlmişkən, 30 ilə yaxın bir müddətdə Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal altında saxlanılması təkcə bir ölkənin ərazi bütövlüyünə qarşı yönəlmiş təcavüz aktı deyildi. Bu, həm də beynəlxalq hüququn, humanitar dəyərlərin və ədalət prinsiplərinin ayaqlar altına atılması idi. Bu dövrdə beynəlxalq ictimaiyyətin, dünya güclərinin və qlobal təşkilatların susqunluğu, ya da riyakar ikili standartlarla məsələyə yanaşması Azərbaycanın haqlı narazılığını doğururdu. Bu xüsusda Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) bəzi qərarları da dünya miqyasında baş alıb gedən selektiv ədalət meyarlarının nümunəsi kimi dəyərləndirilirdi.

Buna ən bariz nümunələrdən biri kimi 2017-ci il dekabrın 12-də AİHM-in Ermənistan tərəfindən Laçın rayonunun azərbaycanlı sakinləri – Çıraqov, Cəbrayılov, Həsənov, Paşayev və digər iki şəxsin iddiaları əsasında çıxardığı qərar göstərilə bilər. Qərarda açıq şəkildə təsdiqlənirdi ki, iddiaçılar 1992-ci ildə öz doğma torpaqlarından zorla qovulub, onların mülkləri ermənilər tərəfindən mənimsənilib və nəticədə həmin şəxslər bu ərazilərə geri dönə bilməyiblər. Qərarda Ermənistanın birbaşa təqsirkar olduğu qeyd olunur və Ermənistan dövləti iddiaçılara mənəvi zərərə görə 5 min avro, eləcə də ümumi xərclərə görə 28,642 funt sterlinq kompensasiya ödəməyə məcbur edilib.

Lakin bu qərarın özündə belə ciddi çatışmazlıqlar müşahidə olunurdu. Belə ki, AİHM maddi ziyanın dəqiq hesablanmasının "mümkün olmamasını" əsas gətirərək, işğal nəticəsində dağıdılmış evlərin, tarlaların, infrastrukturların və digər mülki obyektlərin real dəyərinin müəyyənləşdirilməsinə dair hər hansı təşəbbüs göstərməyib. Halbuki beynəlxalq hüquq çərçivəsində işğal olunan ərazilərdə mülki və maddi zərərlərin kompensasiyası tam şəkildə həyata keçirilməli və hüquq pozuntusuna yol verən dövlət bunun maliyyə məsuliyyətini daşımalı idi.

Qeyd edək ki, Ermənistanın işğal siyasəti nəticəsində yalnız Laçında deyil, bütövlükdə Qarabağ və Şərqi Zəngəzurda minlərlə ailə doğma torpağından didərgin düşüb. Onların mülkləri yandırılıb, dağıdılıb və ya qanunsuz şəkildə ermənilər tərəfindən istifadə olunub. Bu vandalizm aktları – məscidlərin tövləyə çevrilməsi, qəbiristanlıqların təhqir olunması, meşələrin və tarixi abidələrin məhv edilməsi yalnız etnik və dini nifrətin nəticəsi deyil, həm də beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır.

Bu baxımdan, AİHM-in həm Çıraqov və digərlərinin, həm də Sarkisyan adlı erməni qaçqının şikayətinə eyni gündə baxması və formal şəkildə "tərəflərarası balansı qorumağa" çalışması ədalətin siyasi kontekstdə necə manipulyasiya oluna biləcəyinin göstəricisidir. Ermənistanın Azərbaycana qarşı törətdiyi genişmiqyaslı cinayətlər, soyqırımı və məcburi deportasiya faktları fonunda bir nəfər erməni qaçqının şikayətinin "paralel şəkildə" araşdırılması yalnız ikili standartların nəticəsi kimi dəyərləndirilə bilər.

Azərbaycan dövləti bu illər ərzində beynəlxalq platformalarda daim ədalətin bərpası uğrunda mübarizə aparıb. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüququn bərpası üçün siyasi, diplomatik və hüquqi vasitələrdən maksimum istifadə edib. Məhz bu səylərin nəticəsində 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Lakin işğal dövründə baş verən hüquq pozuntularının tam ədalətli şəkildə qiymətləndirilməsi üçün hüquqi müstəvidə işlər davam etdirilməlidir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev çıxışlarının birində bu məsələyə toxunaraq bildirib ki, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir.

Bu gün işğaldan azad edilən ərazilərdə genişmiqyaslı bərpa – quruculuq işləri aparılır, lakin hər dağıdılmış kəndin, hər məhv edilmiş abidənin arxasında insan taleləri, itirilmiş gələcəklər, dağıdılmış ailələr dayanır. Bu baxımdan hüquqi kompensasiyalar yalnız simvolik məna daşımaqla kifayətlənməməli, həm də real ədalət prinsipinə əsaslanaraq Ermənistanın törətdiyi zərərlərin bütünlüklə ödənilməsi təmin olunmalıdır.

Azərbaycan xalqı humanist və hüquqa hörmət edən xalqdır. Amma bu, o demək deyil ki, 30 illik işğal, etnik təmizləmə və mədəni soyqırımı unutdurulmalıdır. Əksinə, belə hadisələrin beynəlxalq hüquqda presedent kimi tanınması və gələcəkdə oxşar təcavüzlərin qarşısının alınması üçün ciddi hüquqi mexanizmlər formalaşdırılmalıdır. Çıraqov işi bu yolda kiçik, amma mühüm bir addım idi, gecikmiş ədalətin səsi idi.

Lakin bu səs daha gur eşidilməli, beynəlxalq ictimaiyyət bu kimi hallarda susmamalı və əsl ədalətin yanında yer almalıdır. Əgər insan hüquqları yalnız siyasi maraqlara görə seçici şəkildə müdafiə olunursa, bu zaman həmin hüquqların mahiyyəti və dəyəri də sual altına düşür.

***V.BAYRAMOV***
***XQ***

# Naxçıvanda baramaçılıq dirçəldilir

## *Ölkə üzrə 2-ci yüksək göstərici qədim diyarda qeydə alınıb*

**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, hazırda bu qədim diyarda bir sıra sahələr üzrə tədbirlər həyata keçirilir. Belə sahələrdən biri də kənd təsərrüfatıdır.**



Tarixən Naxçıvanın aqrar sahəyə uyğunluğu bu məkanda bir çox kənd təsərrüfatı məhsullarının inkişaf etdirilməsinə imkan verib. Buna görə də proqramın qəbulundan sonra muxtar respublikada kənd təsərrüfatının perspektiv sahələri müəyyənləşdirilərək, həmin sahələrin inkişaf etdirilməsi ilə bağlı görüləcək işlər müəyyənləşdirilib. Bu sahələrdən biri də baramaçılıqdır. Tarixə ekskurs etsək görərik ki, 1970-ci ildə Azərbaycanda barama istehsalı 3700 ton səviyyəsində olub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə cəmi 10 il ərzində bu rəqəm 5 min tona yüksəlib. Naxçıvan Muxtar Respublikasında isə yaş barama istehsalı 1970-ci ildə 72,6 ton, 1975-ci ildə 87,6 ton, 1980-ci ildə 122 ton, 1983-cü ildə 137 ton, 1990-cı ildə 89 ton, 1993-cü ildə isə azalaraq 22,7 ton olub. Bu rəqəmlər həm də onu göstərir ki, baramaçılıq Naxçıvanda ənənəvi kənd təsərrüfatı sahələrindən biri olub.

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Rübabə Hüseynzadə** bu fikirlərə əlavə olaraq bildirdi ki, həm region şərtlərinin uyğunluğu, həm ənənəvi təcrübə, həm də iqtisadi rentabelliyi bu sahənin inkişaf etdirilməsini zəruri edirdi. Məhz bu məqsədlə əvvəlcə yem bazasının yaradılması qarşıya qoyuldu. Çünki ötən əsrin 90-cı illərində məcburən bir çox yaşıllıqlar məhv edilmişdi, tut ağaclarının da sayı xeyli azalmışdı. Bu məqsədlə 2023-cü ilin martında Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyinin əməkdaşlığı çərçivəsində Ordubad rayonunun Əylis Düzü adlanan ərazisində ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə "Azərbaycan – Türkiyə ipək bağı" salındı. Həmin bağda 1,2 hektar ərazidə Türkiyədən gətirilən 600-dən çox tut tingi əkildi.

Ümumiyyətlə, proqramın qəbulundan sonra baramaçılığın inkişafı məqsədlə pilot layihə hazırlandı və yem bazasının formalaşdırılması üçün indiyədək muxtar respublikanın bütün bölgələrində 40 minə yaxın tut tingi salınıb. Mövsümi olaraq hər il bu tinglərə aqrotexniki qulluq göstərilib, əlavə tut bağlarının salınması da nəzərdə tutulub.

Hazırda baramaçılıq fəaliyyəti muxtar respublikanın hansı rayonlarında həyata keçirilir?- sualına isə həmsöhbətimiz belə cavab verdi:

– Baramaçılıq fəaliyyəti Naxçıvan şəhəri ilə yanaşı, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Sədərək rayonlarında həyata keçirilir. Bu bölgələrdə, ümumilikdə, 14 kümçüyə 40 qutu ipəkqurdu toxumu paylanılıb. Babək rayonu üzrə 633,5 kiloqram, Sədərək rayonu üzrə 436,2 kiloqram, Culfa rayonu üzrə 226 kiloqram, Şərur rayonu üzrə 207,3 kiloqram, Ordubad rayonu üzrə 118,8 kiloqram, Naxçıvan şəhəri üzrə 75,2 kiloqram, Kəngərli rayonu üzrə isə 60 kiloqram yaş barama tədarük olunub. Ötən illə müqayisədə bu il Naxçıvan Muxtar Respublikasında barama istehsalında artım müşahidə olunub. Belə ki, ümumilikdə, 1757 kiloqram yaş barama istehsal edilib ki, bu da ötən illə müqayisədə 17 faiz artım deməkdir.

Həmsöhbətim bunu da əlavə etdi ki, ən yüksək məhsuldarlıq Sədərək rayonunda qeydə alınıb. Bu rayonda baramaçılıq fəaliyyətinə bu il ilk dəfə başlanılıb. Dəmirçi kənd sakini Gülarə Seyidova tərəfindən bir qutu ipəkqurdundan 90,1 kiloqram məhsul əldə edilib. Əldə olunan yaş barama məhsulu isə Bərdə rayonundakı baramaqurutma məntəqəsinə təhvil verilib. Həmçinin kümçülərə dövlət tərəfindən subsidiyalar, baramanı qəbul edən şirkət tərəfindən ödənişlər vaxtında təmin olunub. Bunu da öyrəndik ki, ötən ilin nəticələrinə görə, Zərdab rayonundan sonra ölkə üzrə ikinci ən yüksək orta məhsuldarlıq göstəricisi məhz Naxçıvan Muxtar Respublikasında qeydə alınıb.

Sonda onu da qeyd edək ki, Naxçıvan tarixən baramaçılığın inkişaf etdirildiyi regionlardan olub. Təsadüfi deyil ki, 1870-ci ildə Ordubadda avropatipli ilk baramaaçan fabrikin tikintisinə başlanılıb, 1883-cü ildə isə istifadəyə verilib. 1970-ci ildə burada toxucu sexi açıldıqdan sonra istehsal edilən xam ipəyin bir hissəsindən cod parça hazırlanır, digər hissələri isə Şəki, Şamaxı, İsmayıllı, habelə Rusiyanın indiki Sankt-Peterburq, Moskva şəhərləri də daxil olmaqla həm də İsveçrə, İtaliya, Belçika, Yaponiya kimi xarici ölkələrə göndərilirdi.

Aparılan araşdırmalara görə, 1981-ci ildə respublikada burada 103 min 843 kiloqram xam ipək, 624,9 min metr cod parça istehsal edilib. 1987-ci ildə isə istehsal olunan ipək 108 tona çatdırılıb. Muxtar respublikanın blokada şəraitinə düşməsi ilə digər sahələr kimi baramaçılıq da tənəzzül edib. Lakin bu gün 35 illik fasilədən sonra muxtar respublikada baramaçılığın şöhrəti yenidən özünə qaytarılıb. Bu sahədə görülən işlər yaxın gələcəkdə daha yaxşı nəticələrin əldə olunmasına ümid yaradır.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan***
***MR üzrə bölgə müxbiri***

# Müstəqillik epoxasının media qaranquşu

## *“İki sahil” ən yeni tariximizin 34 ilinin mətbu salnaməsidir*

**Dövlət müstəqilliyimizin ilk dövründə azad media nümunəsi kimi ərsəyə gəlmiş “İki sahil” qəzetinin 34 yaşı milli mətbuatımızın 150 illik yubileyinin ölkəmizdə təntənə ilə qeyd edildiyi günlərdə tamam olur. Müsahibimiz Milli Məclisin deputatı, “İki sahil” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadədir.**

**– Vüqar müəllim, dövlət müstəqilliyimizin bərpasının 34 illik tarixinə bələdçilik edən, ölkənin demokratik nəşrləri arasında mötəbər yeri, nüfuzlu mövqeyi olan “İki sahil” qəzeti medamızın 70 illik dövründən söz azadlığı epoxasına keçidin önündə olub. Qəzetinizin bir qərinəlik söz marafonu milli mətbuatın 150 illik zirvəsindən baxanda hansı ənənəni yaşadıb, hansı prinsiplərlə mükəmməllik qazanıb?**






– “İki sahil” qəzetinin ilk nömrəsinin çapdan çıxmasından ötən 34 il zaman baxımından çox böyük olmasa da, bu illərin hər birinin qəzetimizinn tarixinə yazdığı möhtəşəm səhifələr sanki bir əsrə bərabər yol keçildiyini təsdiqləyir. Əvvəlcə onu vurğulayım ki, “İki sahil”in yarandığı dövrün reallıqları ilə bugünümüzü müqayisə etdikdə çox çətin, eyni zamanda, şərəfli yol keçdiyimizi, xüsusilə qəzetin fəaliyyətə başladığı ilk illərdə əvvəlki hakimiyyətlər tərəfindən yaradılan maneələrə sinə gərərək heç zaman tutduğumuz yoldan, əqidəmizdən dönmədiyimizi böyük qürur hissi ilə qeyd edirik.

Təbii ki, ilk addımlarımız ciddi çətinliklərlə müşayiət olunsa da, sonrakı illərdə qazandığımız uğurlar artıq çoxdan tarixə qovuşmuş həmin anları bu gün qürur hissi ilə xalırlamağımıza stimul verir. Çünki biz “İki sahil”çilər ilk gündən müəyyənləşdirdiyimiz hədəfə söykənərək yola çıxmışdıq. Şübhəsiz, hələ müstəqilliyini bərpa etməmiş, zamanın sərt, amansız burulğanlarının məngənəsində çabalayan odövrki Azərbaycanın reallığında qət etməli olduğumuz yolun heç də hamar olmayacağını yaxşı bilirdik.

Onu da yaxşı bilirdik ki, xaosun, anarxiyanın, özbaşınalığın meydan suladığı həmin dövrdə bütün çətinlikləri göz altına almalı, hədəfimizə çatmaq üçün fədakarlıq, böyük cəsarət nümayiş etdirməliyik. “İki sahil” məhz bu cəsarəti, fədakarlığı nümayiş etdirdi, Yenə də təkrar edirəm ki, 1991-ci ilin 10 iyul tarixində qəzetimizin ilk nömrəsi işıq üzü görəndə Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi. Daim tariximizin faciəli səhifəsi kimi vərəqlənən, SSRİ məkanında senzuranın tüğyan etdiyi həmin illərdə hansısa müttəfiq respublikada, o cümlədən Azərbaycanda müstəqil mətbuatın yaranıb fəaliyyət göstərməsindən danışmaq sadəcə, çox çətin idi.

Belə bir çətin şəraitdə qəzetimizin nəşrə başlaması, ilk nömrəsindən etibarən qazandığı hər bir uğur kollektivimizin birliyinin, bütün qüvvə və bacarıqlarını vahid amala, istəyə yönəltmələrinin nəticəsidir. Dövlətçiliyimizin möhkəmlənməsinə töhfə vermək, müasir müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsi, həqiqətlərimizin təbliği hər zaman əsas amalımız olub. 34 il əvvəl eyni amal, eyni məqsəd, eyni məramla çıxdığımız yola bundan sonra da davam etdirəcəyik.

Qəzetimizin keçdiyi 34 illik şərəfli yol dövlət müstəqilliyimizin bərpasının 34 illik tarixinə bələdçilik edir. Biz “İki sahil” olaraq müstəqillik tariximizin ayrı-ayrı dövrlərinin təbliği missiyasını şərəflə yerinə yetirərək oxucu auditoriyasını günbəgün genişləndirdik. Bir an belə unutmuruq ki, oxucu sevgisini, inamını qazanmaq hər bir mətbu orqanın fəaliyyətinin əsas stimulverici amilidir.

**– “İki sahil” qəzeti ulu öndər Heydər Əliyevin adı ilə bağlı Yeni Azərbaycan quruculuğuna informasiya təminatı qazandırılmasında fəal iştirak etmiş, bu gün də dövlətçilik maraqlarımıza sıx bağlı olan gündəlik nəşr kimi tanınır.**

– Əvvəldə də qeyd etdiyimiz kimi, “İki sahil” qəzeti hər zaman ümummilli lider Heydər Əliyevin ideyalarının təbliğatçısı olub. Xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi olan 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə “Azərbaycan Sizin sözünüzü gözləyir” başlıqlı müraciəti “İki sahil” qəzetində gərc olunub. Yeni Azərbaycan Partiyasının yaranması zərurətini, bu siyası qüvvənin təşkilatlanmasını, keçdiyi inkişaf yolunu geniş şəkildə işıqlandıran “İki sahil” daim tutduğu yola sadiqlik nümayiş etdirərək ümummilli lider Heydər Əliyevin yaradıcısı olduğu, Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi Yeni Azərbaycan Partiyasının fəaliyyətinin təbliğində bu gün də fəal iştirakı ilə seçilir.

Həm qəzetin baş redaktoru, həm də məşhur “91-lər”dən biri olaraq fəxrlə qeyd edirəm ki, ulu öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının 2-ci ildönümü münasibətilə keçirilən ümumrespublika müşavirəsində müstəqilliyimizin ilk illərində yaşanan vəziyyəti təhlil edərkən həqiqətlərin təbliğində “İki sahil” qəzetinin rolunu yüksək qiymətləndirib.

Ulu öndər həmin müşavirədəki çıxışında bildirib ki, “İki sahil” qəzeti həqiqətlərin təbliğində çox böyük işlər görüb və Yeni Azərbaycan Partiyasına xidmət edir. Ümummilli lider onu da qeyd etmişdi ki, Yeni Azərbaycan Partiyası olmayan zamanlarda da “İki sahil” qəzeti çox cəsarətli məqalələr yayımlayıb. Ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə “İki sahil” qəzeti yaxşı fəaliyyət göstərib. Böyük rəhbərin “İki sahil”in fəaliyyətinə verdiyi bu yüksək qiymət hər zaman fəaliyyətimizin yol xəritəsidir, məsuliyyət hissimizi artıran əsas çağırışdır.

Ümummilli lider Heydər Əliyev daim mətbuata böyük diqqət və qayğı ilə yanaşırdı. Bu il qəzetimizin mətbuatımızın 150 illik yubileyinə təsadüf edən 34 yaşı bizim üçün ikiqat bayram və sevincdir. Hər zaman jurnalistlərin dostu olan ulu öndər Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab edirdi. Bu gün cəmiyyətin güzgüsü kimi dəyərləndirilən Azərbaycan mətbuatı üzərinə düşən missiyanı uğurla yerinə yetirərək ictimaiyyətin informasiya tələbatının ödənilməsini təmin edir.

Demokratik cəmiyyətin varlığının əsas göstəricisi olan azad mətbuatın inkişafına xüsusi diqqət yetirən Ümummilli lider daim jurnalistləri obyektiv, qərəzsiz olmağa çağırırdı. Bu gün ölkəmizdə çoxlu sayda mətbu orqanın fəaliyyəti məhz bu sahəyə xüsusi diqqətin göstərilməsinin təsdiqidir. Çoxsaylı mətbu orqanlar arasında “İki sahil”in özünəməxsusluğunu qoruması, daim obyektiv, cəmiyyəti düşündürən məsələlərlə bağlı materialların dərcinə xüsusi yer verməsi qəzetin oxucu auditoriyasının genişlənməsini təmin edir.

Əlbəttə, oxucu məhəbbətini necə qazandığımızı fəaliyyətimiz cavablandırır. Eyni zamanda, oxucu rəyi daim gələcəyə daha inamla addımlamağımıza əsas verir. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin bu gün adını tarixə torpaqlarımızın xilaskarı kimi yazmasını şərtləndirən 44 günlük İkinci Qarabağ müharibəsi, həmçinin 2023-cü ildə bir günlük lokal antiterror tədbirləri mətbuatımızın üzərinə düşən missiyanı necə yerinə yetirdiyini bir daha nümayiş etdirdi. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq, unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoydu, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərdi, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratdı.

“İki sahil” Zəfər dastanına gedən yolun təqdimatında fəal iştirak edərək həm 44 günlük Vətən müharibəsi, həm də postmünaqişə dövrünün reallıqlarını faktlar əsasında ictimaiyyətə çatdırmasından böyük şərəf duydu. Hər gün tariximizə yazılan zəfərlərin müjdəçisi olmaqdan böyük xoşbəxtlik ola bilərmi? Bu xoşbəxtlikdən, şübhəsiz, “İki sahil”ə də pay düşdü.

Azərbaycanın hər bir uğuru, dövlətimizin uğurlu siyasəti “İki sahil” qəzetinin səhifələrində geniş təhlil edilərək dolğun şəkildə ictimaiyyətə çatdırılır. Tarixi Zəfərimizdən, şanlı Qələbədən sonrakı dövrün reallıqlarından böyük qürur hissi ilə bəhs edirik. Həyata keçirilən hər bir layihə bugünümüz və gələcəyimiz üçün önəmlidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri daim “İki sahil”in qürurla bəhs etdiyi tarixi məqamlar sırasındadır.

Əvvəldə də qeyd etdiyimiz kimi, bu gün artıq qalib, bütövləşən Azərbaycanın uğurlarından bəhs edirik. Tarixi Zəfərimiz bütün sahələrdə yeniliklərə, islahatlara yol açdı. İctimai-siyasi həyatımızda aparıcı rol oynayan, ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan Yeni Azərbaycan Partiyasının tarixi Zəfərimizin reallıqları fonunda keçirilən VII qurultayı YAP-ın fəaliyyətində yeni mərhələnin başlanğıcı oldu.

YAP-ın ali məclisində yeni tərkib formalaşdı, yeni Nizamnamə qəbul olundu. Dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq yeni Proqram işlənib hazırlandı və 2021-ci ilin sonunda qəbul edildi. “Biz birlikdə güclüyük!” çağırışını özündə ehtiva edən yeni Proqram Yeni Azərbaycan Partiyasının bundan sonrakı fəaliyyəti üçün yol xəritəsi oldu. Partiyanın yeni Nizamnaməyə və Proqrama uyğun olaraq atdığı hər bir addım, rayon və şəhər təşkilatlarının gördüyü işlər “İki sahil” qəzetinin səhifələrində ardıcıl və geniş işıqlandırılır. Qəzetimizin hər bir əməkdaşı bundan böyük qürur hissi keçirir.

**– Azərbaycan Dövlət Neft Şirkətinin təsisçiliyi ilə fəaliyyət göstərən “İki sahil” ölkə iqtisadiyyatının inkişafında neft amilinin rolunu ictimaiyyətə necə təqdim edir?**

– Artıq 34 ilə yaxın müstəqillik tarixinə malik olan Azərbaycanın bugünkü reallıqlarını düzgün dəyərləndirmək üçün, təbii ki, müstəqilliyimizin bərpasının ilk illərinə nəzər salmaq bir zərurət kimi qarşıda dayanır. Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycan Ermənistanın hərbi təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı. Taleyimizin həll olunduğu belə bir ağır zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi.

Ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Ümummilli liderin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir. Ulu öndərin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin əsl sahibinə çevrildi.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması ümummilli lider Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri oldu.

Bütün bu reallıqların təbliğində, ölkə ictimaiyyətinə çatdırılmasında “İki sahil” üzərinə düşən missiyanı şərəflə yerinə yetirdi və bu gün də həmin siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın qazandığı uğurları böyük qürur hissi ilə təbliğ edir. Uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizin və suverenliyimizin tam bərpasının reallıqları fonunda Azərbaycanın sülh və əməkdaşlıq gündəliyinin müəllifi kimi rolundan, dünyaya ünvanladığı birlik, həmrəylik, sülh çağırışlarından, azad Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsindən geniş bəhs edən “İki sahil”in səhifələrində son beş ilin xoş ovqatı daha aydın görünür.

Qəzetin hər nömrəsinin manşetinə çıxarılan çağırışların hər biri qalib, bütövləşən, yeni dövrə qədəm qoyan Azərbaycanın qarşıdakı dövr üçün hədəflərini açıqlayır. Düşünülmüş və gələcəyə hesablanmış siyasət Azərbaycanı biri-birindən möhtəşəm uğurlara doğru aparır.

Ümummilli lider Heydər Əliyevin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” çağırışı Azərbaycanın bugünkü reallıqlarında özünün aydın ifadəsini tapır. Müstəqil Azərbaycanın iqtisadi inkişafında və dünya birliyində layiqli yer tutmasında əhəmiyyətli rol oynayan neft hasilatı böyük tarixə malikdir. Bu gün Azərbaycanın iqtisadi inkişafında milli neft şirkətimizin əhəmiyyətli rolu var. Azərbaycanın neft və qaz ehtiyatlarına malik olması ARDNŞ kimi nəhəng transmilli şirkətin yaranması zərurətini meydana çıxardı. Bu gün dünyada SOCAR markası ilə tanınan qurum neft və təbii qazın hasilatında, nəqlində, emalında və dünya bazarlarına çıxarılmasında mühüm funksiyanı yerinə yetirir.

Hazırda şirkətin uğurla həyata keçirdiyi layihələr onun modern beynəlxalq transmilli şirkət kimi nüfuz qazanmasında öz sözünü deyir. Yaradıcı kollektivimiz qəzetimizin təsisçisi olan ARDNŞ-nin çoxşaxəli fəaliyyətini daha geniş şəkildə ictimaiyyətə çatdırmağa çalışır və məmnunluq hissi ilə qeyd etməliyəm ki, bu məqsədinə nail olur. Ümummilli lider Heydər Əliyevin neft strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev təbii sərvətlərin beynəlxalq miqyasdakı əhəmiyyətini yüksək qiymətləndirərək artıq ölkəmizi dünyanın enerji təhlükəsizliyinin təminatında əsas söz sahibinə çevirib.

Azərbaycanın hazırda etibarlı tərəfdaş kimi nüfuz qazanması neft strategiyasının uğurlu icrasının nəticəsidir. Bu gün Azərbaycan həm də dünya üzrə mühüm təbii qaz ixracatçısı kimi tanınır. Respublikamız hazırda 12 ölkəyə qaz ixrac edir. Təbii ki, bu, son deyil və həm ölkəmizin böyük potensiala malik olmasından, həm də səyləri birləşdirərək, təcrübə mübadiləsi apararaq əməkdaşlıq nəticəsində hədəflərə doğru inamla addımlamasından irəli gəlir.

“İki sahil” bu reallıqların təbliğatçısı kimi daim fəaliyyətini genişləndirir. “Əsrin müqaviləsi”nin davamı olaraq “Yeni əsrin müqaviləsi”nin imzalanması, Cənub Qaz Dəhlizinin tam tərkibdə istifadəyə verilməsi və sair biri-birindən əhəmiyyətli qlobal layihələrin həyata vəsiqə alması Heydər Əliyev siyasətinin Azərbaycana qazandırdığı uğurların təqdimatlarıdır. Qəzetimiz hər zaman bu uğurları izləməklə yanaşı, onları əsaslı şəkildə oxucularına çatdırır.

Təbii ki, ARDNŞ-nin fəaliyyəti həm təsisçi olaraq, həm də ölkə iqtisadiyyatının inkişafına davamlı töhfələr verən transmilli şirkət olaraq bizim üçün önəmlidir. Hazırda qəzetin hər bir sayında şirkətin bütün strtukturlarının gördüyü işlər geniş şəkildə təbliğ edilir.

**– Vətən müharibəsində Qələbəmizdən sonra başlanan islahatlar jurnalistikamızda “Media haqqında” Qanunun qəbul edilməsini şərtləndirdi…**

– Media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılması və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması əsas hədəflər sırasındadır. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin edir.

Dövlətimizin başçısı İlham Əliyevin 2021-ci ilin yanvarında imzaladığı “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərman medianın qarşısında yeni imkanlar açdı. Yeni “Media haqqında” Qanunun qəbulu dövrün müasir çağırışlarını özündə ehtiva edir ki, “İki sahil” qəzeti də bu çağırışların yüksək səviyyədə yerinə yetirilməsinə səy göstərir. Yeni çağırışlar, hədəflər inkişaf, tərəqqi deməkdir. Bu çağırışların yüksək səviyyədə cavablandırılması isə mətbu orqanlardan, eyni zamanda, jurnalistlərimizdən daha məsuliyyətli olmağı tələb edir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirir, rəqabət qabiliyyətini artırır. “İki sahil” də bu rəqabətdə öz yerini qorumağa, daha da möhkəmləndirməyə çalışır.

**– Çağdaş qəzet bolluğu şəraitində “İki sahil”in nüfuz və mövqeyini qoruması hansı amillərə söykənir?**

– Özünəməxsusluq məsuliyyət hissini daim öndə saxlayır. Məsuliyyətli olmaq, peşəkarlığı artırmaq, gənclərin yaşlı nəslin təcrübəsindən bəhrələnməsinə geniş imkanlar yaratmaq əsas tələblərdəndir. Ən əsası odur ki, hər bir jurnalist mətbuatın başlıca prinsiplərini qorumalıdır. Obyektivlik, qərəzsizlik, vətənpərvərlik hissinin artırılması əsasdır.

**– Bu gün hansı sahəyə müraciət etsək, gənclərin ön mövqeyə çıxmasını görərik. Dövlətimizin siyasətində gənclərin güclü potensialından daha səmərəli istifadə etmək ümummilli çağırış kimi səslənir. “İki sahil” gənc yazarlara necə meydan verir?**

– “İki sahil” daim yeniləşməyə, təkmilləşməyə maraq göstərir. Yeni dövrün yeni çağırışları olur ki, bu da öz növbəsində kadr məsələsini aktuallaşdırır. Təbii ki, hər il minlərlə məzunun olduğunu nəzərə alsaq, görərik ki, onlar arasında qəzetimizi jurnalist fəaliyyətinin gələcəyi üçün ünvan kimi seçənlər azlıq təşkil etmir. Təbii ki, nəzəriyyəni təcrübə ilə eyniləşdirmək mümkün deyil. Gənclərin biliklərini təcrübəyə tətbiq etmələri üçün yaşlı nəslin məsləhətlərinə, təcrübəsinə böyük ehtiyacı var. “İki sahil” bu sahədə bir məktəbdir. Bunu təbii ki, keçdiyimiz 34 illik yola söykənərək qeyd edirik.

“İki sahil” həmişə peşəkar əməkdaşları ilə oxucularının görüşünə gəlib. Bundan daim böyük qürur hissi keçiririk. “İki sahil” qəzeti 34 illik tarixi ərzində böyük təcrübə əldə edərək, qarşıdakı illər üçün mühüm uğurların təməlini qoyub.

**– Vüqar müəllim, rəhbərlik etdiyiniz “İki sahil”çiləri milli mətbuatımızın 150 illik yubileyi və qəzetin 35 yaşa qədəm basması ilə əlamətdar olan ikiqat bayram münasibətilə təbrik edir, kollektivinizə yeni uğurlar diləyirik.**

***Söhbəti çapa hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

Sabir Əhmədli – 95

# Azərbaycan romançılığının parlaq nümayəndəsi

**Gözəl xatirələrin "yaşıl ağac"ı, İkinci Dünya müharibəsində igidliklə həlak olmuş Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun qardaşı, Qarabağ savaşına könüllü yollanaraq şəhadətə ucalmış Məhəmməd Əhmədlinin atası – Xalq yazıçısı Sabir Əhmədli Azərbaycan ədəbiyyatının ən çox roman yazan müəlliflərdən olub. Onun 20-dən artıq romanı çap edilib.**





Sabir Əhmədli özü də sənətinin, məsləkinin canlı şəhidi idi. Yazdığı əsərlər yorulmaz yaradıcı əzmindən soraq verirdi. Onu saf qələm sahibi kimi yazılı abidələri yaşadır.

O, ədəbi fəaliyyətə 1951-ci ildə "Pioner" jurnalında çap olunmuş "Poçtalyon" hekayəsi ilə başlayıb. Bədii əsərləri və publisistik məqalələri ilə dövri mətbuatda müntəzəm çıxış edib. "Bir payız axşamı" adlı ilk kitabı 1961-ci ildə dərc edilib. Sonralar "Aran", "Pillələr", "Görünməz dalğa", "Yamacda nişanə", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Qanköçürmə stansiyası", "Mavi günbəz", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Şəhid ruhu" və s. kitabları işıq üzü görüb, ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Sabir Əhmədli nəsrimizə yeni ab-hava gətirib, yüksək vətəndaşlıq hissləri ilə qələmə alınmış əsərləri ilə ədəbiyyatımıza böyük xidmət göstərib, neçə-neçə nəslin vətənpərvərlik ruhunda yetişməsində önəmli rol oynayıb. Romanları bir çox xarici ölkə xalqlarının dilinə tərcümə edilib. Onun filmoqrafiyası da var. "Qayıdacağına inanırdı", "Araz üzərində işıq", "Şəfa bulağı" sənədli filmlərinin ssenari müəllifi olub. Əbdürrəhim bəy Haqverdiyevin hekayələri əsasında çəkilmiş "Evlənmək istəyirəm" adlı filmin ssenarisini isə İsi Məlikzadə ilə birgə yazıb. Ədəbiyyatımız qarşısındakı xidmətləri yüksək qiymətləndirilib, ona Xalq yazıçısı, Əməkdar incəsənət xadimi fəxri adları verilib.

Sabir Əhmədlinin davranışları da örnək olub. Heç vaxt haqqı nahaqqa verməyib. Bir vaxt Məmməd Arazı partiyadan uzaqlaşdırmaq üçün keçirilən iclasda yalnız o, sinəsini qabağa verərək, şairi müdafiə edib və yanlış qərara etirazını bildirib. Bir dəfə də "Ədəbiyyat qəzeti"nin baş redaktoru olduğu vaxt Yazıçılar Birliyində qəzetin müzakirəsi zamanı səslənən nahaq iradlar Sabir Əhmədlini bərk qəzəbləndirib (Əslində, həmin iradlar onu işdən çıxarmaq üçün bəhanə idi). Odur ki, "Keçmə namərd körpüsündən, qoy, aparsın sellər səni" – deyərək iclası tərk edib və bir də o redaksiyaya ayaq basmayıb.

...Yazıçı 1985-ci ilin 9 mayında qardaşı Cəmil Əhmədlinin abidəsini uzaq Varşavada tapandan sonra vətənə qayıdaraq, Xudafərin körpüsünü ziyarət etmək istəyir və Qumlaq kəndinə gedir. O zaman üçün bu, çox müşkül məsələ idi. Amma əsərlərində həqiqəti car çəkməkdən qorxmadığı kimi, burada da öz həyat prinsipinə sadiq qalır. Araza və o taylı türk ellərinə bağlı olan yazıçı üçün bu, əsl ilham mənbəyi olacaqdı deyə, rayon rəhbərliyi etiraz etmir və birlikdə sərhədə gedirlər. Beləliklə, yazıçı Xudafərinə heç kimin gedə bilməyəcəyi məsafə qədər yaxınlaşır.

O, İkinci Dünya müharibəsindən sonrakı dövrü əsərlərində ən parlaq boyalarla təsvir edən yazıçılardan biri olub. "Sabir Əhmədov əlinə qələm aldığı ilk gündən kotanlı-belli, oraqlı-çinli, dəryazlı bir kənd müdriki, el adamı, torpaq oğlu kimi bu aləmdən bütün varlığı ilə yapışmış, xalqın sevinc və kədərini, yeni həyat tərzini, düşüncələrini, yaşamaq uğrunda mübarizəsini yaradıcılığına hopdurmuşdur" (Qulu Xəlilov).

Daha sonra, ötən əsrin 90-cı illərinin ictimai-siyasi təbəddülatları, 20 Yanvar faciəsi, Qarabağ savaşı Sabir Əhmədlinin əsərlərinə güclü sirayət edib. Konflikt, çarpışma daim işlək olub. Bu dəfə yazıçını düşündürən nəsnələr "olumla ölüm, cənnətlə cəhənnəm, ruhlar aləmi ilə həqiqət dünyası, zalımlıq və adillik" (Famil Mehdi) məqamları idi. Haqq işimizə həsr etdiyi romanlarda metafizik anlamda çevrilmə (Elnarə Akimova) baş verib. "Kütlə", "Yanvar hekayələri", "Axirət sevdası", "Kef", "Ömür urası" və ölümündən sonra çap olunan "Yazılmayan yazı" əsərləri Sabir Əhmədlinin ölkədə yaşanan olaylara həssas yazıçı baxışıdır.

"Hərbçilərimizin, siyasətçilərimizin, millətimizin eləyə bilmədiyini yenə də ədəbiyyatımız, əslində, yalqız-qocaman bir yazıçı həyata keçirdi – işğal altındakı torpaqlarımızı, xəyalən də olsa belə, düşmən tapdağından azad edib öz doğma yurdu Cəbrayıla qayıtdı" (Həmid Herisçi).

Görkəmli yazıçı, unudulmaz səmimi insan Sabir Əhmədlinin işıqlı xatirəsi onu tanıyanların və oxucularının qəlbində daim yaşayacaq.

***Ə.ƏLİYEV***
***XQ***

Yeni kitablar

# "Gizli Dədə Qorqud"

**Xalq yazıçısı Kamal Abdullanın "Gizli Dədə Qorqud" kitabı çap olunub.**




Monoqrafiya əvvəlki nəşrlərin ümumiləşdirici variantı olmaqla yanaşı, bir sıra yeni fəsillər, bölmələr və əlavələrlə təkmilləşdirilib.

Akademik, Xalq yazıçısı Kamal Abdullanın çoxcəhətli elmi və ədəbi fəaliyyətində Dədə Qorqud dünyası xüsusi yer tutur. Daha doğrusu, Dədə Qorqud motivi Kamal Abdulla üçün keçici yox, daimi mövzudur. Elmi tədqiqat işinə "Kitabi-Dədə Qorqud"la başlayan Kamal Abdulla sonralar həm elmi fəaliyyətində, həm də bədii yaradıcılığında bu mövzuya fərqli bucaqlardan yanaşmaqla bir-birini təkrar etməyən maraqlı və əhəmiyyətli bədii əsərlər, ciddi monoqrafik tədqiqatlar meydana qoymuşdur. Belə müşahidə olunur ki, o, özünü daha çox Dədə Qorqud dünyasında tapmışdır. Dədə Qorqud dünyasında çoxlu yeni, fərqli, cəlbedici, zəruri mövzular görərək, onları özünəməxsus şəkildə yazıb cəmiyyətə çatdırmağı bir yazıçı alim kimi missiyası hesab edir.

# Fəlsəfənin çağdaş həqiqət axtarışı

**Azərbaycan Milli Elmlər Akademiyasının baş elmi işçisi, Azərbaycanda Atatürk Mərkəzinin əməkdaşı, Fəlsəfə Cəmiyyətlərinin Beynəlxalq Federasiyasının üzvü, fəlsəfə elmləri doktoru Rahid Uluselin "İlğımdan Absurda, yoxsa Gerçəkdən Həqiqətə?!" adlı yeni irihəcmli kitabı ideya konseptuallığı, mədəniyyətin və humanitar elmlərin problemlərinə yeni yanaşma cəhdi ilə seçilir.**




"Elm və Təhsil" nəşriyyatında çap edilmiş kitaba müəllifin dünya, ümumtürk və Azərbaycan mədəniyyətinə dair araşdırmaları, 2020-ci il Vətən müharibəsi dövründə qələmə aldığı məqalələri, müxtəlif mövzulu polemik fəlsəfi esseləri, klassik aforizm yaradıcıları xüsusunda yazıları, humanitar elmlər üzrə keçirilən bir sıra beynəlxalq konqreslərdəki (Seul, Harvard, Stokholm, Afina, Roma) çıxışları daxil edilib.

Kitabda Türk sivilizasiyasının təkamülü, müasir türk dövlətləri arasında siyasi-mədəni birliyin yaranması, İslam sivilizasiyasının yüksəliş və tənəzzül səbəbləri, sivilizasiyalararası dialoqa qlobal təhdidlərin ideoloji kökləri, Qərbin və Rusiyanın Qafqaz siyasətinə münasibətdə Azərbaycanın özünütəsdiq siyasəti, Qarabağ müharibəsindəki qələbəmizin tarixi və siyasi əhəmiyyəti, milli mədəniyyətimizin suveren dövlətçilik təfəkkürü ilə özünü dərk etməsi kimi aktual məsələlər araşdırılır.

Müəllif "Avesta", "Tövrat", "Quran", "Bhaqavad Gita", "Tao Te Çinq" kimi əski mətnləri, Platon, Aristotel, İohann Volfqanq Gete və Fridrix Nitsşenin klassik irsini, Fransua de Laroşfuko, Blez Paskal, Ralf Uoldo Emerson və Rabindranat Taqorun aforizmlərini, Oqyüst Rodenin monumental abidələrini dəyərləndirir. O, İmadəddin Nəsimi və Kuzanlı Nikolas, Məhəmməd Füzuli və Mikelancelo, Hüseyn Cavid və Cibran Xəlil Cibran kimi Şərq və Qərb klassiklərini müqayisəli təhlil edir, həmçinin, çağdaş Azərbaycan alimləri və filosoflarının, yazıçı və şairlərinin yaradıcılığını məhz dünya intellektual və ədəbi-bədii fikri kontekstində nəzərdən keçirir. Harmoniya fəlsəfəsi – bu araşdırmaların əsas metodoloji özəyi kimi çıxış edir.

***XQ***

# "Vətən" beynəlxalq festivalın qalibidir



**Litvanın Şaulyay şəhərində keçirilən X Beynəlxalq Folklor və İncəsənət Müsabiqə-Festivalına iki nominasiya üzrə qatılmış "Vətən" musiqi qrupunun üzvləri hər iki kateqoriyada birincilik qazanaraq festivalın xüsusi mükafatına layiq görülüblər.**

Festivala UNESCO-nun Beynəlxalq Xalq Yaradıcılığı və İncəsənət Təşkilatı, eyni zamanda, Beynəlxalq Rəqs Festivalları Federasiyası rəhbərlik edib. Ümumilikdə 41 ölkənin qatıldığı müsabiqədə Azərbaycanla yanaşı, Litva, Latviya, Portuqaliya, Serbiya, Rumıniya, Slovakiya, Şimali Makedoniya, Sloveniya, Macarıstan, İspaniya, Estoniya və digər ölkələr təmsil olunublar.

Xanəndə Səfalı Mirzəliyev, tarzən Ruslan Zərbaliyev, kamança ifaçısı Pərviz Fərhadov və nağaraçı Elnur Əliyevdən ibarət qrup folklor ansamblları nominasiyası üzrə I yerin qalibi olub. Festivalın təşkilat komitəsi tərəfindən qrup üzvlərinə Litvanın milli musiqi aləti hədiyyə edilib. Onlar, həmçinin "Festivalın ən yaxşı musiqiçiləri" adına və xüsusi mükafata layiq görülüblər. Tarzən Ruslan Zərbəliyev isə instrumental ifa nominasiyasında fərdi çıxış edərək qalib olub, diplom və pul mükafatı ilə təltif edilib.

Müsabiqədən sonra "Vətən" musiqi qrupu Litvanın Siauliai, Zarenai və Meskuicay şəhərlərində geniş konsert proqramları ilə çıxış edib. Qrup üzvləri konsertlər zamanı tamaşaçıları yerli dildə salamlayıb, Litvanın Dövlət Himnini Azərbaycan milli musiqi alətlərində ifa edib və Azərbaycan xalq rəqslərini yerli iştirakçılara öyrədiblər. Musiqiçilərimizin çıxışları izləyənlər tərəfindən böyük maraqla qarşılanıb.

Festival zamanı keçirilən parad və yürüşlərdə də iştirak edən "Vətən" musiqi qrupu Azərbaycan bayrağını ön sıralarda dalğalandırıb. Həmçinin Azərbaycan bayrağı 7 gün ərzində Şiauliai şəhərinin mərkəzi küçəsində dalğalandırılıb.

Bundan əlavə, qrup üzvləri şəhərin meri ilə də görüşüblər. Görüş zamanı musiqiçilərimiz milli musiqi alətlərindən ibarət hədiyyələri merə və festival komitəsinin sədrinə təqdim ediblər.

Sonra Litvanın paytaxtı Vilnüs şəhərində yerləşən Azərbaycan səfirliyi ziyarət olunub. Orada Azərbaycan Respublikasının Litvadakı səfiri Tamerlan Qarayevlə görüş keçirilib. Səfir musiqiçilərimizi təbrik edib, onlara sənət fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, "Vətən" musiqi qrupunun üzvləri həm respublika, həm də beynəlxalq müsabiqələrin qalibləri olmaqla yanaşı, Azərbaycan Milli Konservatoriyası və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimləridir.

***XQ***

# Dostluğu tərənnüm edən film



**Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində Azərbaycan–İsrail Beynəlxalq Assosiasiyasının (Azİz) təşkilatçılığı ilə iki ölkə kinematoqrafçılarının birgə istehsalı olan "Sevgimizin yolları" filminin təqdimatı keçirib.**




Mərasimdə tanınmış ictimai xadimlər, sənət adamları iştirak ediblər.

"Sholumi"(İsrail) studiyasının məhsulu olan ekran əsərində azərbaycanəsilli aşkenazi yəhudisi ilə müsəlman azərbaycanlının əbədi məhəbbət hekayəsindən bəhs edilir, həmçinin İsrail və Azərbaycan xalqlarının dostluğu tərənnüm olunur.

Filmin qəhrəmanları Mixail və Yeganə Salmanlar hazırda İsraildə yaşayır və hər ikisi Azərbaycan ilə İsrail xalqları arasında münasibətlərin daha da möhkəmlənməsinə əhəmiyyətli töhfələr verən diaspor fəallarıdırlar.

Filmin ssenari müəllifi və rejissoru Rüfət Əsədov (Azərbaycan), prodüsseri Shaul Siman-Tovdur (İsrail), operatorları isə Royal Quluzadə, Vusal Nazimoğlu və Sərxan Mədətlidir (Azərbaycan).

***XQ***

# Əntiq Əşyalar Muzeyi yenidən açıldı

**Qala Əntiq Əşyalar Muzeyi bərpadan sonra yenidən fəaliyyətə başlayıb.**



Uzun müddət qəzalı vəziyyətdə olan və dəyərli tarixi mirasımızı yaşadan muzeydə bərpa və yenidənqurmaq işlərini "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirib. Artıq ziyarətçilər buraya yenidən gəlmək və nadir tarixi eksponatlarla tanış olmaq imkanı qazanıblar.

Qeyd edək ki, 2011-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan muzey, illər boyunca Azərbaycan xalqının zəngin dekorativ-tətbiqi sənət nümunələrini və qədim məişət əşyalarını geniş ictimaiyyətə təqdim edib. Hazırda muzeydə 800-dən çox unikal eksponat nümayiş etdirilir.

***XQ***

## Turizm meridianı

**Azərbaycan gözəlliklər məskənidir. Bu cənnətməkan ölkənin laləli çölləri, zirvəsi ağ örpəkli, yamacı yaşıl meşəli dağları, coşqun çayları, firuzə qaşlı üzüyə bənzər gölləri, diş göynədən bulaqları insana min bir gözəllik duyğusu bəxş edir. Qədim və şanlı tarixi olan Azərbaycan təbii sərvətləri ilə yanaşı, mənəvi zənginliyi ilə də yaxın-uzaqlarda məşhurdur.**

# Hörmət görmək istəyən Azərbaycana gəlsin!

## *“Odlar yurdu” sürətlə turizm ölkəsinə çevrilir*



Bir çox xalqların səyyahları, görkəmli elm və sənət adamları yurdumuzu qarış-qarış gəzib, bu möcüzələr diyarının gözəlliklərinə vurğun olublar. Söz adamları bu gözəlliklər və zənginliklər məkanını sevgi və ilhamla tərənnüm ediblər. Tarixən, “Odlar yurdu” kimi tanınmış ölkəmiz “qara qızıl”ı, kəhrəba buğdası, dadlı-ləzzətli meyvələri, sərin, şəfalı yaylaqları, xoşniyyət, mehriban, qonaqpərvər insanları əcnəbiləri bu gün daha çox heyran qoyur.

Çevrəmizin maddi aləmi son dərəcə gözəl, zəngin və rəngarəngdir. Əslində, biz özümüz də təbiət adlanan bu aləmin bir zərrəsiyik, onun tərkib hissəsiyik. Dünya çox gözəl, həm də hikmətlidir. Biz zəngin və füsunkar bitkilər aləminin, vəhşi heyvanlar da daxil olmaqla, saysız-hesabsız canlıların əhatəsindəyik. Bütün bunlar bizə gəl-gəl deyir, qəlbimizi oxşayır, düşüncəmizi zənginləşdirir. Turizm bu tələbatı ödəmək üçün geniş qapılar açır, hər cür rahatlıq və təmas imkanlar yaradır.

Əslində, Yer kürəsi adlandırdığımız planetin məzmunu da elə ən şüurlu və ən ali varlıqlar olan biz insanlarla bizi əhatə edən təbiətin harmoniyasındadır. Dünyamızın sabahı və gələcəyi bu vəhdətdən və bu vəhdətin əzəli və əbədi tarazlığından asılıdır. Bu harmoniyanın, bu tarazlığın pozulması dünyanı fəlakətə sürükləyə bilər, bütün bəşəriyyəti, dünyanı məhv edə bilər. Ona görə də biz insanlar təbiətə qayğı və məhəbbətlə yanaşmalı, planetimizin bitki örtüyünü – florasını və canlılar aləmini – faunasını qorumalıyıq.

Təbiətin ayrılmaz hissələrindən biri meşələrdir. Meşələr bizim məişətimizin bir hissəsidir. Yaşıllıq əhatəsində insanı işıqlı fikirlər öz ağuşuna alır, xoş əhval-ruhiyyə, qurub-yaratmaq eşqi güclənir. Azərbaycanın bütün bölgələri zəngin bitki örtüyü və sıx meşələri ilə daim turistlərin marağında olmuşdur. Təbiəti qorumaq öz sağlamlığımızı qorumağımız deməkdir. Hamımızın borcu olan bu işə laqeyd yanaşsaq illər sonra təbiətdə bunun ciddi fəsadlarını görəcəyik. Belə ki, təbiətin məhv olması həmin yerdə selin, daşqınların, güclü küləklərin baş verməsinə və ən əsası oksigen ehtiyatının azalmasına gətirib çıxaracaq. Bu isə canlı orqanizimin, bəşəriyyətin məhv olması ilə nəticələnə bilər.

Vətənimizin təbiəti çox gözəl və rəngarəngdir. Azərbaycanda başı qarlı dağlar, geniş yaşıl düzənliklər var. Ölkəmizin şimalında Böyük Qafqaz, qərbində və cənub-qərbində Kiçik Qafqaz, cənub-şərqində Talış dağları uzanır. Bazardüzü, Şahdağ, Babadağ, Dəlidağ, İlandağ Azərbaycanın ən uca dağları və dağ zirvələridir. Ölkəmiz təbii ehtiyatlarla zəngindir. Bu təbii ehtiyatlara insanın yaşaması üçün istifadəsi mümkün olan hər şey daxildir. Faydalı qazıntılar, torpaq, su mənbələri, meşələr, okean və dənizlər təbii ehtiyatlardır.

Planetimizin 11 iqlim tipindən 9-nun ölkəmizdə olması müxtəlif növ bitkilərin əkilib-becərilməsi üçün əlverişli şərait yaratmışdır. Yurdumuzda 8 min 300-dən çox çay, 250-dən çox göl və su anbarı vardır. Kür və Araz Azərbaycanın ən böyük çaylarıdır. Bu çaylar Türkiyə dağlarından axıb gəlir, Azərbaycanın ərazisində birləşərək Xəzər dənizinə tökülür. Xəzər dünyanın ən böyük gölüdür. Ərazisi çox böyük olduğuna və dənizə aid bir çox xüsusiyyətlərinə görə onu dəniz adlandırırlar.




Azərbaycanın Göygöl, Maralgöl, Batabat kimi gözəl mənzərəsi olan gölləri çoxdur. Təbiətin möcüzəsi Göygölün suyu çox şəffaf olduğu üçün 13 metr dərinliyi görmək olur. Gölün suyu üç qatdan ibarətdir: şirin su qatı, keçid qatı, zəhərli kükürd qatı. Maraqlıdır ki, bunlar bir-birinə qarışmır. Göl sıx meşələrlə əhatə olunmuşdur.

Azərbaycanın bitki örtüyü çox zəngindir. Respublikamızda 4500 bitki növü, Dəmirağac, Eldar şamı, Saqqızağacı kimi qiymətli, nadir ağaclar bitir.

Ölkəmizin heyvanlar aləmi də çox zəngindir. Ölkəmizdə 30 mindən çox heyvan növü vardır. Azərbaycan dövləti nadir bitki və heyvan növlərini qorumaq məqsədilə qoruqlar, milli parklar və yasaqlıqlar yaratmışdır. Nəsli kəsilmək təhlükəsi olan bitki və heyvan növləri Azərbaycan Respublikasının “Qırmızı kitab”ına daxil edilmişdir. Dünyada analoqu olmayan Naftalan müalicə nefti də, Duzdağ da Azərbaycandadır. Palçıq vulkanlarının sayına və müxtəlifliyinə görə Azərbaycan dünyada birinci yeri tutur. Ölkəmiz müalicəvi əhəmiyyətli mineral sularla zəngindir. Buna görə Azərbaycan ərazisini “mineral sular muzeyi” adlandırırlar. Vətənimizin gözəl və zəngin təbiəti hər bir insanı cəlb edir. Sadaladığımız arqumentlər Azərbaycana turist axınını və onun sayının ilbəil artmasını şərtləndirir.

Dediklərimizi rəqəmlər kəmiyyət baxımından yığcam və dəqiq ifadə edir. 2025-ci ilin yanvar–may aylarında Azərbaycana dünyanın 178 ölkəsindən 979 min 900 və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumata görə, ölkəmizə gələnlərin 24,6 faizi Rusiya Federasiyası, 17,7 faizi Türkiyə, 10,7 faizi Hindistan, 8,6 faizi İran, 4,4 faizi Gürcüstan, 3,6 faizi Qazaxıstan, 2,9 faizi Səudiyyə Ərəbistanı, 2,8 faizi Pakistan, hər birindən 2 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və İsrail, hər birindən 1,9 faiz olmaqla Özbəkistan və Çin, 1,4 faizi Ukrayna, 1,3 faizi Türkmənistan, hər birindən 1 faiz olmaqla Belarus və Küveyt, 12,2 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 68,9 faizini kişilər, 31,1 faizini qadınlar təşkil edib.

Azərbaycana bu il səyahət edənlərin sayını ötən ilin eyni dövrü ilə müqayisə etsək belə bir mənzərə ilə qarşılaşarıq: Turist kimi İsraildən gələnlərin sayı 2,5 dəfə, Tacikistandan – 1,7 dəfə, Çindən – 1,5 dəfə, İordaniyadan –- 44,3 faiz, Qırğızıstandan – 39,5 faiz, Yaponiyadan – 35,4 faiz, Pakistandan – 21,1 faiz, Qazaxıstandan – 20,4 faiz, Cənubi Koreyadan – 18,2 faiz, Niderlanddan – 17,7 faiz, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərindən – 17,5 faiz, Kanadadan – 17,0 faiz, ABŞ-dan – 16,0 faiz, İspaniyadan – 15,7 faiz, Hindistandan – 15,1 faiz, İtaliyadan – 13,2 faiz, Misirdən – 10,6 faiz artıb. Turistlərə göstərilən ümumi xidmətdən razılığın, könül sevindirən gözəlliklərin seyrindən doğan məmnunluğun nəticəsidir ki, ölkəmizə gələnlərin sayı ildən-ilə artır.

2024-cü ilin yanvar–may ayları ilə müqayisədə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,9 faiz artaraq 39 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 1,6 faiz azalaraq 153 min 700 nəfər, MDB ölkələrindən gələnlərin sayı 7,8 faiz azalaraq 326 min 700 nəfər olmuş, digər ölkələrdən gələnlərin sayı isə 10,4 faiz artaraq 460 min 500 nəfər təşkil edib.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istər yurdumuza gələrkən, istərsə də ölkədaxili səyahətlər zamanı müxtəlif nəqliyyat növlərindən istifadə etmişlər. Onlardan 73,4 faizi hava, 25,2 faizi dəmir yolu və avtomobil, 1,4 faizi isə dəniz nəqliyyatı ilə istədikləri məkana yetişmişlər.

Paytaxtda və bölgələrdə yeni yaradılan turistik məkanların çoxalması, orada istirahət üçün yaradılan şərait nəticəsində bəzi ölkə xaricinə səfər edənlərin sayı azalıb. 2024-cü ilin yanvar–may ayları ilə müqayisədə bu il xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı 0,1 faiz azalaraq 807 min 6 nəfər olub. İrana gedən Azərbaycan vətəndaşlarının sayı 27,3 faiz, Gürcüstana gedənlərin sayı 22,8 faiz artıb, Türkiyəyə gedənlərin sayı 6,2 faiz, Rusiya Federasiyasına gedənlərin sayı isə 25,3 faiz azalıb.

Azərbaycan vətəndaşlarının 36,5 faizi Türkiyəyə, 16,4 faizi Rusiya Federasiyasına, 11 faizi Gürcüstana, 11 faizi İrana, 25,1 faizi digər ölkələrə səfər edib. Gedənlərin 66,8 faizini kişilər, 33,2 faizini qadınlar təşkil edib. 2025-ci ilin yanvar–may aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının 67,8 faizi hava, 30 faizi dəmir yolu və avtomobil, 2,2 faizi isə dəniz nəqliyyatından istifadə edib.

Yay tətilini səmərəli keçirmək istəyən yerli əhali əsasən səfalı bölgələrimizə üz tuturlar. Azərbaycanın rayonlarında otellərin sayı əhaliyə görə az, qiymətlər baha olduğundan bütün turistlərin tələbatı ödənmir. Bu səbəbdən insanlar şəxsi evlərdə kirayədə qalmağa üstünlük verirlər. Rayonlara görə qiymətlərin dəyişməsi də istirahəti hamı üçün əlçatan etmir. Bəzi rayonlarda günlük 50–70 manatdan aşağı ev tapmaq mümkün deyil. Bəzilərində isə evlər daha baha, günlük 80–100 manat arasında dəyişir.



Maraqlısı odur ki, ev sahibləri turistlərdən “otel qiymətinə bərabər pul alsalar da, təklif olunan xidmətin səviyyəsi” otellə müqayisədə çox aşağı olur. Belə ki, “od qiymətinə” ev kirayə tutan turist yataq dəstini özüylə gətirir, onlara heç vaxt gigiyenik vasitələr verilmir. Ən əsas problem isə internetə çıxış imkanının həmişə müşkülə çevrilməsidir. Belə demək mümkündürsə, ev sahibləri həftəlik 400–500 manatın müqabilində turistlərə 4 divar və 4 çarpayı təklif etməklə kifayətlənirlər.

İqtisadçıların fikrincə, qiymətlərin bu qədər baha, xidmətin keyfiyyətinin aşağı olmasına səbəb Azərbaycanda ev turizminin inkişaf etməməsidir. Ev turizminin olmamasının əsas səbəbi turizm ənənələrinin olmamasıdır. Bu bazar tədricən formalaşır. Bəzən insanlar evlərində yad birinin qalmasına razı olmurlar. Bu problemə görə bazara təqdim edilən əmlak sayı az olur. Əmlak bazarına turistik məkanlar, şəxsi evlər çox təklif olunsa, rəqabətin sonu qiymətlərin daha sərfəli olmasına gətirib çıxarar.

Bundan başqa, turistik bölgələrdə texnologiya da aşağı səviyyədədir. Ümumi götürülsə turizm sahəsində təklif az, xidmətin keyfiyyəti isə aşağıdır. Əhalinin turistik mədəniyyət ənənələrinin yeni formalaşması lazımi keyfiyyətin əsas götürülməsinə imkan vermir.

Dövlət Turizm Agentliyinin və “Şahdağ” Turizm Mərkəzinin birgə təşkilatçılığı ilə yay mövsümünün açılışı, bu istiqamətdə həyata keçirilən işlər və yeniliklərlə əlaqədar “Şahdağ”a təşkil edilən mediaturda agentliyin sədrinin müşaviri Kənan Quluzadə 2030-cu ilə qədər turizm sektorunda ÜDM istehsalının 11,5 milyard manata, turizmin qeyri-neft və qaz iqtisadiyyatındakı payının 8,2 faizə, turizm üzrə daxilolmaların 7,4 milyard manata çatacağının proqnozlaşdırıldığını bildirib.

DTA sədrinin müşaviri bununla yanaşı, bu dövr ərzində regionların xarici turist gecələmələrindəki xüsusi çəkisinin 46 faizə, turizm sənayesinin muzdlu əmək bazarındakı payının isə 5,8 faizə yüksələcəyinin gözlənildiyini qeyd edib.

Dövlət Turizm Agentliyinin turizm siyasəti və strategiyası şöbəsinin müdir müavini Günay Bayramovanın fikrincə, ilkin qiymətləndirmələrə görə, ötən il turizm sektorunun ölkə iqtisadiyyatında payı 4,5 faiz, o cümlədən qeyri-neft və qaz sektorunda isə 6,7 faiz olub. 2018–2024-cü illərdə turistlərin yerləşdirilməsi və ictimai iaşə fəaliyyəti növü üzrə ÜDM istehsalı illik orta hesabla 3,8 faiz artıb, bunun nəticəsində 7 il ərzində bu sektorda yaradılan əlavə dəyər 30 faiz yüksələrək 2024-cü ildə 3,1 milyard manata çatıb.

2017–2024-cü illərdə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 44,4 faiz, onların birdəfəlik tutumu isə 62 faizə yaxın artıb. Yay mövsümü ilə əlaqədar ərazidə və hotellərdə mövcud infrastruktur təkmilləşdirilib, yenidənqurma və bərpa işləri aparılıb, o cümlədən kanat xətləri, qonaqlara təklif olunan əyləncə növləri və atraksionlar texniki baxışdan keçirilərək hazır vəziyyətə gətirilib.

Gələn ilin mart ayında “Şahdağ”da keçiriləcək Xizək Alpinizmi üzrə Avropa Çempionatı və Dünya Kuboku yarışları ilə bağlı infrastruktur işlərinə başlanılıb, yeni 10 kilometrlik xizək yolunun inşası aparılıb, bununla yanaşı, bu ilin sonuna 124 nömrəlik yeni “Lakeside” hotelinin istifadəyə verilməsi nəzərdə tutulub. Kompleksin inkişafı və genişləndirilməsi mərhələli şəkildə həyata keçirilir və aparılan işlər davamlı xarakter daşıyır.

Yeni istirahət və əyləncə məkanlarının açılması, orada turistlərin rahat istirahəti üçün lazımi şəraitin yaradılması ölkəmizin turizm potensialının genişlənməsinə, bu da öz növbəsində Azərbaycana turist axınının daha çox artmasına şərait yaradır.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Multikulturalizm Mərkəzi islamofobiyaya qarşı mübarizədə

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) icraçı direktoru Rəvan Həsənov Misir Ərəb Respublikasının paytaxtı Qahirədə Ərəb Dövlətləri Liqasının baş ofisində keçirilən beynəlxalq konfransda iştirak edib. “İslamofobiya: Mövcud qlobal kontekstdə konsepsiya və təcrübə” adlı beynəlxalq konfransı Ərəb Dövlətləri Liqası və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) təşkil edib.**



Konfransın əsas məqsədi dinlərarası və mədəniyyətlərarası dialoqu təşviq etmək, sülh, qarşılıqlı hörmət və təhlükəsizliyə töhfə verməkdir. Konfransda islamofobiyanın səbəbləri, onun yayılması, cəmiyyətlərə və beynəlxalq təhlükəsizliyə təsiri müzakirə edilib. Təhsil, vətəndaş cəmiyyəti və dövlətlərarası əməkdaşlığın bu problemlə mübarizədə rolu da əsas mövzulardan biri olub. Müzakirələrdə tolerantlığın, dialoqun və birgəyaşayışın vacibliyi vurğulanıb.

Konfransda çıxış edən BBMM-in icraçı direktoru Rəvan Həsənov bildirib ki, islamofobiya bu gün dünyada ciddi və sistemli ayrı-seçkilik problemidir, demokratiyanın əsas prinsiplərinə – bərabərlik, din azadlığı və ədalətə ziddir. Bu problem təkcə qərəz deyil, həm də qanunvericilikdə, mediada və ictimai rəydə müsəlmanlara qarşı diskriminasiyaya yol açan təhlükəli tendensiyadır. Rəvan Həsənov vurğulayıb ki, problemin səmərəli həlli üçün beynəlxalq əməkdaşlıq, maarifləndirmə, media və gənclərin iştirakı ilə birgə layihələr vacibdir. O, Azərbaycanın islamofobiyaya qarşı mübarizədə göstərdiyi səylərdən də danışıb.

BBMM rəhbəri qeyd edib ki, Azərbaycan müxtəlif dinlərə və mədəniyyətlərə hörmətin təşviqində həm regionda, həm də beynəlxalq səviyyədə fəal rol oynayır. Ölkəmiz islamofobiya ilə mübarizədə beynəlxalq təşəbbüslər irəli sürür və bu məqsədlə böyük konfranslar, forumlar təşkil edir. Rəvan Həsənov islamofobiyaya qarşı mübarizənin yalnız müsəlmanların deyil, bütövlükdə insan haqlarının və demokratiyanın müdafiəsi olduğunu xüsusi vurğulayıb.

***T.RÜSTƏMLİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 139 (30833) 10 iyul 2025-ci il, cümə axşamı

## İDMAN

### Firdovsi Umudov BAF-ın rəhbər heyətinə seçilib



**Azərbaycan Ağırlıqqaldırma Federasiyasının (AAF) vitse-prezidenti Firdovsi Umudov Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (BAF) "Məsləhət Qrupu"na üzv təyin edilib.**

Təyinatla bağlı Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud F.Umudovu təbrik edib. Qeyd edək ki, BAF-a üzv olan 200-dən artıq ölkənin federasiya nümayəndəsi arasından "Məsləhət Qrupu"na AAF rəsmisinin seçilməsi ölkə idmanımız üçün böyük nailiyyətdir. Belə ki, buna qədər Azərbaycan Avropa və dünya Ağırlıqqaldırma federasiyalarının rəsmi strukturunda heç bir nümayəndə ilə təmsil olunmayıb.

F.Umudov 2023-cü ilin sentyabrından Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti vəzifəsini icra edir.

### Gimnastlarımızın 3 uğuru




**Portuqaliyanın Koimbra şəhərində batut gimnastikası və tamblinq üzrə keçirilən beynəlxalq turnir gimnastlarımız üçün uğurlu olub. Belə ki, milli komandanın üzvlərindən Selcan Mahsudova batut gimnastikası üzrə 54.720 xal, Məhəmməd Həsənli - 47.410 xal qazanaraq I yerləri tutublar. Aylin Ağazadə isə 45.270 xalla III yerlə kifayətlənib.**

Fərdi çıxışlarda isə ikili-mini batut proqramı üzrə Fərhad Mustafayev 22 min xalla II yerin sahibi olub. Gimnastlarımız Sənan Rzazadə və Hüseyn Əsədullayev yüksək nəticələr nümayiş etdiriblər.

### "Çelsi" 110 milyon dollar qazanıb



**ABŞ-də keçirilən klublararası dünya çempionatının finalçısı olan İngiltərə təmsilçisi "Çelsi"-nin indiyədək yarışdan əldə etdiyi gəlir bəlli olub. Belə ki, "zadəganlar" 110 milyon dollar qazanıblar. Yeri gəlmişkən, komanda finalda qalib gəlsə, gəlir 120 milyon dollara çatacaq.**

Qeyd edək ki, "Çelsi" həlledici matçda PSJ (Fransa) – "Real" (İspaniya) cütünün qalibi ilə üz-üzə gələcək. Qarşılaşma dünən Bakı vaxtı ilə saat 23:00-da başlanıb. Qəzetimiz çapa gedərkən, təəssüf ki, hesab bəlli deyildi.

*M.HACIXANLI*
*XQ*

Çağdaş futbolumuz

# "Sabah" Masazırdan Avropaya qanadlanıb

*Avrokubok təmsilçilərimizə xoş sabahlar arzulayırıq*




**Yeni mövsümdə rəsmi beynəlxalq meydanda Azərbaycan klub futbolunu təmsil edəcək komandalara xeyir-dua vermək vaxtı çatıb. Bu dəfə çətin və şərəfli sınaqlar yoluna "Sabah"-la başlayırıq. Sonuncu Azərbaycan kuboku yarışının qalibi UEFA Avropa Liqası turnirinin 1-ci təsnifat mərhələsinin start görüşündə meydana çıxmağa hazırdır. Masazır qəsəbəsindəki "Bank Respublika Arena"da Abşeron futbolçularının rəqibi Sloveniyanın Çelye şəhərinin eyniadlı komandasıdır. Qazaxıstanlı hakimlər briqadasının idarə edəcəyi oyunda topa ilk zərbə bu gün saat 20-də endiriləcək.**

Növbəti Azərbaycan milli çempionatına və Avroliqa turnirinə yeni baş məşqçi litvalı mütəxəssis Valdas Dambrauskasın rəhbərliyi ilə hazırlaşan "Sabah" doğma azarkeşlər qarşısında oynamasına baxmayaraq, kifayət qədər kəskin mübarizə ərəfəsindədir. Onun rəqibi Sloveniya klub futbolunun ən güclü nümayəndələrindən biri olduğunu ötən mövsümdə inamla sübuta yetirib, Konfrans Liqası turnirində dörddəbir finaladək irəliləməyi bacarmışdı. Bu, az iş deyil.

İndi isə Avropa Liqası turnirinin startında hər iki komandanı və onların pərəstişkarlarını Bakıda da, Çelyedə də maraqlı mübarizə vəd edən görüşlər gözləyir. Çətin rəqabətdən qalib ayrılıb, 2-ci təsnifat mərhələsində döyüşmək hüququ qazanmaq üçün paytaxt klubu istər bu axşam hər qarışına yaxşı bələd olduğu meydanda, istərsə də bir həftədən sonra səfərdə keçirəcəyi və bu dəfə ədaləti bolqarıstanlı hakimin qoruyacağı cavab görüşündə rəqibindən üstün futbol nümayiş etdirməlidir.

Elə Avroliqa matçları ərəfəsində Avstriyada təlim-məşq toplanışı, bu ölkədə Rumıniya, Macarıstan klubları ilə yoxlama görüşləri də Sloveniya təmsilçisi ilə rəsmi oyunlara daha yaxşı hazırlaşmaq məqsədinə xidmət edib. "Sabah"ın toplanışdan nə dərəcədə fayda götürdüyünü qarşıdakı həftədə biləcəyik.

Azərbaycan kubokunun sahibi Avropa Liqası turnirinə uğurla başlasa, bu, iyulun sonuncu ongünlüyündə digər iki turnurdə mübarizəyə qoşulacaq komandalarımıza da əlavə güc verər.

Konfrans Liqası yarışlarında ötən milli çempionatımızın gümüş mükafatçısı "Zirə"nin Xorvatiyanın yaxşı futbol ənənələri olan Split şəhərinin "Hayduk" klubu ilə 2-ci təsnifat mərhələsi çərçivəsində ilk oyunu iyulun 23-nə təyin edilib. Rəqiblər "Neftçi Arena"da üz-üzə gələcəklər. Xorvatiyada cavab matçı isə iyulun sonuncu günü keçiriləcəkdir.

Maraqlıdır ki, püşk bir il əvvəl də Rəşad Sadıqovun komandasına Xorvatiya futbolu nümayəndəsini rəqib seçmişdi. Onda "Zirə" futbolçuları 3-cü mərhələdə "Osiyek" səddini 1 qələbə və 1 heç-heçə ilə keçib, pley-off mərhələsinə yüksəlməyi bacarmışdılar. Görək "Hayduk"la necə olacaq.

Tarixində ilk dəfə Azərbaycan milli çempionatının mükafatçısı kimi təbrikləri qəbul etmiş "Araz Naxçıvan" da bürünc medalları təsadüfən qazanmayıb. Komanda ötən mövsümdə əzmkar və məhsuldar oyunu ilə yüksək iddialarla yaşadığını təsdiq etdi. İndi isə daha geniş miqyasda uğur qazanmaq, Konfrans Liqasında da fərqlənmək vaxtıdır. Hərçənd Elmar Baxşıyevin futbolçularının rəqibi Yunanıstanın zəngin təcrübəli "Aris" komandasıdır. Bu klubların da oyunları iyulun sonuncu həftəsinə təsadüf edəcək. Rəqiblər əvvəlcə Bakıda, sonra da yunanların meydanında qarşılaşacaqlar.

Çempionlar Liqası turnirinin 2-ci təsnifat mərhələsində isə azarkeşlərimizin həyəcanı daha da artacaq. Azərbaycan klub futbolunun şəriksiz lideri, avrokubok yarışlarında qrup mərhələsinin daimi iştirakçısı Ağdamın "Qarabağ" komandasının rəqibinin bu mərhələdə "Şelburn" (İrlandiya)—"Linfild" (Şimali İrlandiya) cütünün qalibi olacağı iyunun 18-də İsveçrənin Nyon şəhərində keçirilmiş püşkatma mərasimində məlum olmuşdur. Təmsilçimizin onlardan məhz hansı ilə görüşəcəyi isə bu komandalar arasında 1-ci təsnifat mərhələsi oyunlarında müəyyənləşəcək. Yəqin ki, "Qarabağ" üçün təxminən eyni səviyyəli bu iki klubdan hansının rəqib olacağının elə bil fərqi yoxdur. Azərbaycan çempionu onların hər birindən üstün olub, 3-cü mərhələdə yoluna davam etməyə daha çox ümid edə bilər. Ancaq heç cür arxayınlaşmaq da olmaz.

Dəfələrlə ağır sınaqlardan çıxmış "Qarabağ" iyulun 22-də və 29-da baş tutacaq görüşlərdən sonra 3-cü mərhələyə vəsiqənin sevincini yaşamaq üçün qarşıdakı oyunlara tam hazırlıqla başlamaq əzmindədir. Bu günlərdə Avstriyanın qonağı olan Qurban Qurbanovun komandasının həmin ölkədə keçirdiyi təlim-məşq toplanışı və yoxlama görüşlərinin öz bəhrəsini verəcəyinə inamımız böyükdür.

Növbəti avrokubok sınaqları ilə bağlı builki ilk qeydlərimizi yekunlaşdıraq. "Qarabağ", "Zirə" və "Araz Naxçıvan"ın hazırlığı davam etdirmək üçün hələ 2 həftə vaxtları var. "Sabah" isə artıq bu axşam "Çelye" ilə "münasibətləri aydınlaşdırmağa" başlayacaq.

Bütün 4 klubumuza çətin sınaqlardan şöhrətə aparan yolda inamlı start, uğurlu finiş və xoş sabahlar arzusu ilə:

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Sosial şəbəkədən seçmə

# Hüseynqulu xanın müdrik kəlamı



**Türkiyənin populyar teleserialı olan "Qurdlar vadisi" filminin qəhrəmanı Polat Alemdarın dediyi, bəzi sitatlarda Şeyx Şamilə aid edilən, bəzən də şəhidlər haqqında yazılara başlıq kimi qoyulsa da, mənbəyi bildirilməyən "Sonunu düşünən qəhrəman olmaz" fikri, əslində, onların heç birinə məxsus deyim deyil.**

"Facebook" sosial şəbəkəsində "Azərbaycanlıların səhifəsi" kontentində də təsdiqlənir ki, bu aforizmin müəllifi azərbaycanlı tarixi şəxsiyyət – Bakı hakimi olmuş Hüseynqulu xandır. Özü də dediyini əməli ilə təsdiqləyib. Yalnız onu deyək ki, sözügedən kontentdə də, digər yazılarda da səhvən Bakı hakimi Hüseynqulu xanın deyil, onun adaşı və müasiri olmuş Urmiya xanlığının hakimi Hüseynqulu xan Qasımlı-Avşarın şəkli qoyulur. Bu yanlışlıq da, yəqin ki, Bakı xanının öz şəklinin olmaması üzündən baş verir.

Hadisə belə olub: 1806-cı il fevralın 8-də Bakını tutmaq istəyən rus general Pavel Sisianov "Mən istəyirəm ki, Hüseynqulu xan şəxsən özü qarşımda diz çöküb açarları təqdim etsin" deyərək onu Qoşa Qala qapısının yanına çağırır. Hüseynqulu xan Bakı bəylərindən olan məşhur Əhməd bəylə və əmisi oğlu İbrahim bəylə birlikdə zahirən itaətcil kimi qala darvazasından çölə çıxır. Sisianov polkovnik Georgi Eristovla və bir nəfər cangüdənlə onlara yaxınlaşır və açarları amiranə surətdə almaq istərkən İbrahim bəy dəqiq açdığı iki atəşlə onu və Eristovu öldürür. Qılınc döyüşünü çox gözəl bilən Hüseynqulu xan isə cəld bir hərəkətlə uzun xəncərini çıxararaq general Sisianovun başını bədənindən ayırır. Düşmən yerə yıxılan zaman "Səndən Gəncənin də, Şamaxının da heyfini çıxdım" – deyir. Bundan sonra Hüseynqulu xan yeraltı keçidin qapısı üzərinə bu sözləri yazdırıb: "Sabahını düşünən insan heç vaxt igid ola bilməz".

Onu da deyək ki, bəzi mənbələrdə bu hadisə xəyanət kimi dəyərləndirilib. Hətta hadisədən 40 il sonra erməni Tomas Ayvazovun ianəsi hesabına həmin yerdə canişinin abidəsinin də quraşdırıldığı barədə məlumat var. Aleksandr Dümanın "Qafqaz səfəri"ndə oxuyuruq: "İsmət və bəkarət rəmzi olan Qız qalasına gəlməmişdən qabaq başqa bir abidəyə də rast gəlmişdik. Bu, Gürcüstanın canişini general Sisianovun abidəsi idi... Ermənilər Sisianovu xəbərdar etmişdilər ki, görüş zamanı onu öldürəcəklər. Sisianov özünü Sezar kimi cəsur göstərmiş və "Buna cürətləri çatmaz", – demişdi". Amma, göründüyü kimi, Hüseynqulu xanın cürəti çatmışdı.

**P.S:** Hazırda hadisənin baş verdiyi küçə Qarabağda şəhid olmuş Təbriz Xəlilbəylinin adını daşıyır.

*Ə.DOSTƏLİ*
*XQ*

# İsti bir yay günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 30-35 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 11-16, gündüz 20-25 dərəcə isti olacağı bildirilir.

*Q.QASIMOV*
*XQ*

***✓ 2024-cü il oktyabrın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən Baxışlı Elmir Mirbəşir oğluna məxsus "TOYOTA PRİUS" hibrid minik markalı, 90VK060 nömrəli nəqliyyat vasitəsinin BA seriyalı, 430919 nömrəli qeydiyyat şəhadətnamsi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

Əflatun Amaşov və Qüdrət Piriyev Rəhim Qədirova anası

**RUQİYYƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi institutun əməkdaşı Dilman Quliyevə atası

**BƏHRAM KİŞİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3069
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00